www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 may 2018-ci il Bazar ertəsi № 110 (6999) Qiyməti 60 qəpik

**Xəbər**

**Dubayda oğurlanan azərbaycanlı uşağın taleyi ilə bağlı yeni təfərrüat**

yazısı səh.10-da

# BAKININ QIZIL FÜRSƏTİ - AĞ EVİN SEÇİMİ

Tramp ABŞ-a birinci kimi dəvət edəcək - prezident İlham Əliyevi, yoxsa Paşinyanı? **Azərbaycana qarşı ermənin yeni məkrli hədəfi:** işğalçının bir əlindən Rusiya, o birindən Amerika tutsa...




yazısı səh.8-də

## Gündəm

### Bayıl yamacında vəziyyət ktirikləşir



Bu həftə sakinlərə qəti söz deyiləcək; **mütəxəssis:** "Badamdar yaylası böyük faciədir..."

yazısı səh.3-də

### Qarabağ düyünü Ermənistanı çıxılmaza salıb

yazısı səh.11-də

### Amnistiya səviyyəsində böyük əfvə sayılı günlər qaldı

yazısı səh.5-də

### Putinin Lavrov sevgisinin sirri

yazısı səh.9-da

### Paxla, göbələk, dondurma... daha hansı məhsullar uşaqlar üçün təhlükəlidir?

yazısı səh.13-də

### I və IV qruplara qəbul imtahanı keçirildi

yazısı səh.2-də

### Qorxu filmi kimi "Koroğlu" MMC: intihar, həbs, işgəncə...

yazısı səh.12-də

### Çimərlik mövsümü gəlir: 50 manatdan başlayan qiymətlər...

yazısı səh.13-də

### "Sahil" stansiyası vaxtından tez açılacaq - müjdə

yazısı səh.14-də

### Müğənnilərin Ramazan qayğıları - kim nə ilə məşğuldur...

yazısı səh.14-də

## Ramazan ayının 5-ci günü

İftar 20.11. İmsak 03.34-dək (QMI)

5-ci günün duası: "İlahi, məni bu gün tövbə və istiğfar edənlərdən, dostların sayılan saleh bəndələrindən qərar ver! Öz məhəbbət və mərhəmətinlə məni bu gündə Sənə yaxın olan bəndələrindən qərar ver! Ey, mərhəmət edənlərin ən Mərhəmətlisi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Azərbaycan ordusu möhtəşəm hərbi parada hazırlaşır

Düşmənə sanballı güc nümayişi olacaq paradda bütün növlərdən yeni silahlar nümayiş olunacaq; "Türk şahinləri" səmamızda süzəcəklər...

yazısı səh.5-də




### Həbsdəki o generalı bağışlamaq olarmı?

yazısı səh.3-də



*Fəzail Ağamalı:*

### "Hüseyn Abdullayev 90-cı illərin axırına qədər heç kim idi"

yazısı səh.7-də



### Toğrul İsmayıldan Türkiyədəki kritik seçkilərlə bağlı ilginc şərh

yazısı səh.6-da



## Naxçıvanda Azərbaycan hərbçisi şəhid olub

**Mayın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmən tərəfinin növbəti təxribatının qarşısını alarkən, döyüş tapşırığını yerinə yetirən zaman Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Tatarov Adil Əli oğlu şəhid olub.**

"Report" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Nazirliyin rəhbərliyi şəhidin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir.

Müdafiə Nazirliyi bildirir ki, törədilən təxribatın arxasında birbaşa bir neçə gün əvvəl qoşunların bu istiqamətində yerləşən qarşıdurma xəttində səfərdə olan Ermənistanın yeni təyin edilmiş müdafiə və xarici işlər nazirləri dayanır və onların göstərişi ilə həyata keçirilməsi istisna olunmur.

Ermənistan rəhbərliyi bilməlidir ki, Naxçıvanın qəhrəman müdafiəçiləri şəhidin qisasını qısa müddətdə alacaq.

## I və IV qruplara qəbul imtahanı keçirildi



**Dünən Dövlət İmtahan Mərkəzi (DİM) 2018/2019-cu tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. Mərkəzdən Musavat.com-a verilən məlumata görə, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 62 binada aparılıb. İmtahanların idarə olunmasına 229 imtahan rəhbəri və orta ümumtəhsil müəssisələrindən 2603 nəzarətçi-müəllim cəlb olunub.**

İmtahanda 33139 abituriyentin iştirakı nəzərdə tutulur.Onlardan 28055 abituriyent I qrup üzrə, 5084 abituriyent IV qrup üzrə imtahan verib. Abituriyentlərdən 30356 nəfəri Azərbaycan bölməsinin (I qrup üzrə 25841, IV qrup üzrə 4515 nəfər), 2783 nəfəri isə rus bölməsinin (I qrup üzrə 2214, IV qrupüzrə 569 nəfər) məzunudur. Abituriyentlərdən ən yaşlısı 1962-ci il təvəllüdlü, ən gənci isə 2003-cü il təvəllüdlüdür.

## Ermənilərin arzusunu gözündə qoyan tarixçi vəfat etdi



**Dünya şöhrətli amerikalı tarixçi Bernard Levis dünyasını dəyişib. Qaynarinfo.az xəbər verir ki, 31 may 1916-cı ildə Londonda dünyaya gəlmiş Levis Prinston Universitetinin professoru, İslam tarixi, Yaxın Şərq, İslam-Qərb münasibətləri üzrə mütəxəssis idi. Yəhudi əsilli Bernad Levis sabiq ABŞ prezidenti Corc Buşun məsləhətçisi vəzifəsində çalışıb.**

Qeyd edək ki, Levis 1993-cü ildə qondarma erməni soyqırımının "soyqırım" olmadığını demiş, müharibənin detallarından biri adlandırmış və bu mövqeyi Paris məhkəməsi tərəfindən "erməni soyqırımının inkarı" kimi dəyərləndirilərək ona simvolik 1 frank pul cəzası verilmişdi.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz.

**Telefon: (012) 434 93 01**

# Prezidentin əks-hücum bəyanatı hədəfə dəydi: İrəvan təşvişdə

**"Prezidentin Naxçıvandan verdiyi son bəyanatlar Ermənistan cəmiyyətinə ayıldıcı təsir göstərəcək və regiondakı mövcud şəraiti daha düzgün qiymətləndirməyə imkan yaradacaq". Musavat.com xəbər verir ki, bunu Axar.az-a Ermənistanın müdafiə və xarici işlər nazirlərinin gözlənilmədən Naxçıvan istiqamətinə səfər etməsi ilə bağlı danışarkən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib.**



Politoloq bildirib ki, Ermənistanın təşvişə düşməsinə əsas var: "Paşinyan Qarabağa səfəri əsnasında sülhdən danışmaq əvəzinə təhdidedici bəyanatlar verdi. Azərbaycan siyasi rəhbərliyi tərəfindən buna əvvəlcə Xarici İşlər Nazirliyi səviyyəsində cavab verilsə də, daha sərt mövqe ölkə prezidentinin Naxçıvana səfəri ilə öz əksini tapdı. Prezidentin orada diqqəti ordunun gücünə yönəltməsi ondan xəbər verir ki, Naxçıvanın 70 kilometrliyində yerləşən İrəvan şəhəri və Ermənistanın istənilən məntəqəsi çox asanlıqla və yüksək dəqiqliklə vurula bilər. Hakimiyyətə yenicə gəlmiş Paşinyan işğalçı fikirlər səsləndirərək erməni xalqını populizmlə coşdurmaq istədiyi halda Azərbaycan sakit formada və reallığı əks etdirən faktlara müraciət edərək İrəvanın cavabını verir və Paşinyanın yerinə yetirilməsi mümkünsüz olan şərtlər irəli sürərək danışıqlar prosesini pozmağa yönəlik, militarist açıqlamalarının yolverilməz olduğunu bildirir".

Politoloq Ermənistan cəmiyyətinin hələ Paşinyanın populist çıxışlarının təsiri altında olduğunu bildirib: "Ermənilər undurlar ki, qarşıda onları çox ciddi sınaqlar gözləyir. Bu sınaqlar içərisində xüsusi yeri Dağlıq Qarabağ probleminin həlli tutur. Bunun əsasını isə Paşinyanın eyni yetkin fikirləri deyil, başqa arqumentlər təşkil edəcək. Paşinyan vədlər verəndə Azərbaycanın XİN başçısı Cenevrədə həmsədrlərlə görüşərək gələcək sülh danışıqlarının istiqamətlərini və məzmununu müəyyənləşdirirdi. Bütün bunlar onu göstərir ki, Ermənistanda inqilab adı altında baş vermiş proseslərdə eyforiyaya düşmüş insanlar hələ ki, reallığı fantastik dərəcədə qiymətləndirir və imkanlarını həddindən artıq şişirdirlər. Hesab edirəm ki, Prezidentin Naxçıvandan verdiyi bəyanatlar Ermənistan cəmiyyətinə ayıldıcı təsir göstərəcək və regiondakı mövcud şəraiti daha düzgün qiymətləndirməyə imkan yaradacaq. Üstəlik, Rusiyada və rus KİV-lərində Ermənistanı çox ağır formada təhqir edən yazılar fonunda Azərbaycan prezidentinin son bəyanatları tam hədəfinə çatır və Ermənistan cəmiyyətinin nə qədər ağır vəziyyətdə olduğunu bütün çılpaqlığı ilə ortaya qoyur".

## Bu gün hava küləkli və yağışlı olacaq

**Ölkə ərazisində mayın 21-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-18° isti, gündüz 25-30° isti olacağı gözlənilir.**

Naxçıvan Muxtar Respublikasında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14° isti, gündüz 24-29° isti təşkil edəcək.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir, leysan xarakterli olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13° isti, gündüz 15-20° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 26-31° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-17° isti, gündüz 23-28° isti, dağlarda gecə 7-12° isti, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-19° isti, gündüz 28-33° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-18° isti, gündüz 25-30° isti, dağlarda gecə 9-14° isti, gündüz 18-23° isti olacaq

## Bakının mərkəzində 17 yaşlı yeniyetmə bankı yarmaq istədi

**Bakıda bankdan oğurluğa cəhd etmiş gənc oğlan tutulub. Musavat.com Lent.az-a istinadən bildirir ki, mayın 19-da gecə saat 01:22 radələrində "Kapital Bank" ASC-nin Nəsimi rayon Asif Məhərrəmov küçəsində yerləşən "Binəqədi" filialından polisə həyəcan siqnalı daxil olub.**

Polis əməkdaşları dərhal ərazini nəzarətə götürüb və məlum olub ki, naməlum şəxs bankın şüşə konstruksiyalı əsas giriş qapısını sındıraraq içəri daxil olmaq istəyir. Keçirilən əməliyyatla banka soxulmağa çalışan paytaxt sakini, 2001-ci il təvəllüdlü Zeynalov Əhməd Əhəd oğlu tutulub. Faktla bağlı Nəsimi rayon Polis İdarəsinin 19-cu Polis Bölməsində araşdırma aparılır.



## Kərə yağı idxalından asılılıq aradan qaldırılacaq

**2019-cu il üçün Azərbaycanda kərə yağı idxalından asılılığı, demək olar ki, tam aradan qaldırmaq planlaşdırılır. Bunu Trend-ə "Azərbaycan Süd və Süd Məhsulları İstehsalçıları və İxracatçıları" İctimai Birliyinin icraçı direktoru Samir Eyyubov deyib.**

S.Eyyubov bildirib: "Azərbaycanın kərə yağının idxalından çox ciddi asılılığı var. Dövlət bu məsələni həll etmək niyyətindədir. Bu məqsədlə 2019-cu ilin ortasına qədər ölkədə fəaliyyət göstərən müəssisələr əsasında iki yeni müəssisə yaradılacaq. Bunun üçün əlavə istehsal xətləri alınır. Hər bir müəssisənin emal gücü sutkada 200 ton süd təşkil edəcək. Bu da təxminən 10 ton kərə yağı deməkdir"

İcraçı direktorun sözlərinə görə, layihələrin maliyyələşdirilməsi Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu xətti üzrə aparılacaq: "Məbləğ hələlik açıqlanmır".

Qeyd edək ki, 2018-ci ilin ilk rübündə Azərbaycan 20,69 milyon dollar məbləğində kərə və süddən hazırlanan digər növ yağlar idxal edib. Bu göstərici 2017-ci illə müqayisədə 53 faiz çoxdur.

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018

# Bayıl yamacında vəziyyət get-gedə kritikləşir

Bu həftə sakinlərə konkret söz deyiləcək; **mütəxəssis:** "Badamdar yaylası böyük faciədir..."

**Bayıl qəsəbəsi, Buxta 9 küçəsində təhlükəli vəziyyət davam edir. Sürüşmə baş verən ərazidə kommunal xidmətlərin verilişi dayandırılıb.**

Öncə məlumat üçün qeyd edək ki, mayın 15-də saat 20:00 radələrində Səbayel rayonu, Bayıl yaşayış sahəsi, Buxta küçəsində yeraltı proseslərin təsiri ilə torpaq sürüşməsi baş verib və bu zaman 2 fərdi yaşayış evi tam, 2-si isə qismən dağıntılara məruz qalıb.

Sakinlər "Yeni Müsavat"a bildiriblər ki, hazırda ərazidə sürüşmə nəticəsində dağılan evlərin söküntü işləri aparılır. Həmin ərazidə isə bütün kommunal xətlər də kəsilib. Nəticədə yaxınlıqda yaşayan qonşular işıqsız, qazsız qalıblar. Sakinlərə Rayon İcra Hakimiyyətindən bildirilib ki, bu həftənin 3-cü günü onlara köçürülmə və ya hər hansı bir tədbirin görülməsi ilə bağlı konkret söz deyiləcək.

Buxta küçəsində baş verən sürüşmə, yaxınlıqda yerləşən 16 mərtəbəli binaya da təsir edib. Sakinlərin sözlərinə görə, artıq binanın divarlarında çatlar əmələ gəlib. Mütəxəssislər isə qeyd edirlər ki, bu ərazidə hər zaman sürüşmə hadisəsi baş verə bilər. Çünki ərazi relyef baxımından yaşamaq üçün yararlı deyil. Üstəlik də evlər tikilən zaman yamacın kəsilməsi, torpaq qatının aşağıya doğru sürüşməsinə təsir edir.

Mütəxəssislər onu da qeyd edirlər ki, tikinti işləri aparılan zaman aktiv sürüşmə zonaları nəzərə alınmalı, monitorinq keçirilməlidir. Sürüşmələrin təbii səbəbləri - relyef, mövcud tektonik qırılmalar, süxurların litoloji tərkibi, yamacların meylliliyi, atmosfer yağıntıları, Xəzər dənizinin tərəddüdü, suffoziya və sairdir. Eyni zamanda antropogen amillər - texnogen sular (kanalizasiya və suvarma), yamacların kəsilməsi, tikinti işləri və s. kimi amillərin Bayıl zonasına təsiri nəzərə alınmalıdır.

1971-1986-cı illərdə Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Soveti sədrinin 1-ci müavini vəzifəsində işləmiş Əzim Məsimov "Yeni Müsavat"a bildirdi ki, Bayıl ərazisində sürüşmənin əsas səbəbləri kanalizasiya sularıdır: "Ərazidə kanalizasiya sistemi olmadığı üçün sürüşmə də baş verir. Orada başqa səbəb yoxdur. Oradakı tikililər hələ sovet vaxtından var. Sonradan da ərazidə tikinti işləri aparılıb. Bir məsələ də var ki, əvvəllər suyun verilişində fasilələr olduğu üçün indiki qədər yamaca kanalizasiya suyu axıdılmırdı. İndi isə suyun verilişi fasiləsizdir və yamaca da axıdılan kanalizasiya suyunun miqdarı avtomatik olaraq artıb. Bütün bunların nəticəsində dağın yamacı şişir və sürüşmə başlayır. Bu proses hələ davam edəcək. Badamdar yaylası böyük bir faciədir. Orada bu şəkildə, kanalizasiyasız tikintilər aparmaq olmazdı. Şəhərdə qayda yaradılmalıdır. Ev tikən adama deyilməlidir ki, xərclərin 40 faizi kommunal xətlərə sərf olunmalıdır. Bizdə isə bu qayda yoxdur. Binanı tikirlər, sonra fikirləşirlər ki, bunun kanalizasiyasını hara verəcəklər. İnsanların təcrübəsi olmadığı üçün bu cür hallara yol verirlər. Bakının xeyli sayda bu kimi problemləri var. Məsələn, "Şıxov" deyilən ərazi başdan-başa çimərlik idi. İndi oranı da məhv ediblər. Şəhərin Biləcəri, Xırdalan və sairə hissəsinin kanalizasiyası ora axdığı üçün çimərlik sıradan çıxıb".



Mütəxəssis Bayıl ərazisinin yaşamaq üçün uyğun olmadığını dedi: "Şimal tərəfdə yeni tikintilər aparılıb. Ərazi tamamilə yaşıllıq zona olub. 10 ildən sonra orada da sürüşmənin başlayacağını görəcəyik. Ona görə də yamaclar tikintilərdən azad olmalıdır. Tikinti də aparan zaman bunu ağılla, qaydalara uyğun şəkildə etmək lazımdır. Ərazidə yol yox, iz yox. Kim necə istəyir, elə yol çəkir və ya quyu qazıb kanalizasiyasını ora buraxır. Bu baxımdan problemləri həll etmək üçün Bakıya ağıllı, düşüncəli rəhbər təyin olunmalıdır. Bayıl yamacında bir çox evlər müharibə zamanı tikilib. Sonradan orada tədbir görməkdən, tikintiləri daha da artırıblar. Tikdiklərinə də kanalizasiya xətti çəkməyiblər. İndiki şəraitdə isə orada nə kanalizasiya xətti çəkmək olar, nə də başqa bir iş görmək mümkün deyil. Onu zamanında etmək lazım idi. Küçələr çəkilməli, istinad divarı yaradılmalı idi. Bunların isə heç biri olmayıb. Ərazidə üstdəki ev, aşağıdakı evin istinad divarıdır. Müharibə vaxtı orada insanlar özləri üçün elementar yaşayış yeri düzəldiblər. Həmin zaman insanlar nə kommunal xidmət haqqında düşünürdülər, nə də başqa bir fikirdə deyildilər. Sonradan isə sovet dövründə ittifaq hökumətinin qərarı vardı ki, sənaye, neft ərazisində olanların hamısı köçürülməlidir. Bu istiqamət üzrə xeyli işlər görüldü. Bayıl yamacında neft olmadığı üçün ora fikir verən olmadı. Nəticədə həmin ərazidə hələ o dövrdən məskunlaşanlar öz yerlərində qaldılar, üstəlik yeniləri tikildi və bugünkü vəziyyət yarandı".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Azərbaycan qaziləri və zabitləri İstanbulda görüşlər keçiriblər

**Xəbər verdiyimiz kimi, Prezident Administrasiyası, Gənclər və İdman Nazirliyinin dəstəyi, "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin təşkilatçılığı ilə qazilərdən, ehtiyatda olan zabitlərdən, hərbiyönümlü QHT rəhbərlərindən ibarət Azərbaycan nümayəndə heyəti Türkiyədə səfərdədir.**



Musavat.com bildirir ki, Ankarada görüşlərini bitirən nümayəndə heyəti İstanbula gəlib. Azərbaycan nümayəndə heyəti ilk öncə İstanbulun Sarıyer bölgəsində mərhum prezident Heydər Əliyevin adına salınmış parkı ziyarət edib. Burada Heydər Əliyevin və Mustafa Kamal Atatürkün xatirəsini ehtiramla yad ediblər.

Ziyarətdən sonra nümayəndə heyətimiz İstanbulda təşkil olunan Atatürkü Anma Gənclik və İdman Bayramına qatılıb. Bayram tədbirində Türkiyə Silahlı Qüvvələri İstabul Qarnizonunun komandiri, ordu generalı Musa Avsevər, İstanbul valisi Vasip Şahin, İstanbul Bələdiyyəsinin sədri Mevlüt Uysal və digər şəxslər iştirak edib.

Səfərin təşkilatçılarından olan Emin Həsənli musavat.com-un müxbirinə deyib ki, tədbirdən sonra İstanbul Qarnizonunun komandanı, ordu generalı Musa Avsevər, İstanbul valisi Vasip Şahin nümayəndə heyətimizlə görüşüb. Nümayəndə heyəti adından İstanbul valisi Vasip Şahinə xatirə hədiyyəsi təqdim edilib.

Görüşlər davam edir.



# Həbsdəki o generalı bağışlamaq olarmı?

## Naxçıvanın sabiq MTN şefi Vəli Ələsgərov azadlığa çıxmaq üçün əfv ərizəsi yazıb

**14 il azadlıqdan məhrumetmə cəzasına məhkum olunan Naxçıvan Muxtar Respublikasının sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərov əfv olunmaq üçün prezident İlham Əliyevə müraciət edib. Bu barədə gununsesi.info-ya məlumatlı mənbələrdən informasiya daxil olub.**

Məlumatda bildirilir ki, ölkə başçısına ünvanladığı müraciətində sabiq nazir Azərbaycan dövləti qarşısında xidmət göstərdiyini xatırladaraq, prezidentdən onu bağışlamasını diləyib.

Musavat.com yada salır ki, Naxçıvan Muxtar Respublikasının sabiq milli təhlükəsizlik naziri Cinayət Məcəlləsinin 179.3.2-ci (Mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 309.1-ci (Vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddələri ilə ittiham olunub.

Vəli Ələsgərov 2016-cı ilin martın 7-də həbs edilmişdi. Amma martın 29-da həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz edildi. Bundan sonra isə general "rahat durmadı". O, müdafiəçiləri vasitəsilə mediada müxtəlif səpkili bəyanatlar verməyə başladı. Üstəlik, keçmiş nazir istintaq prosesində təhqir və işgəncələrə məruz qaldığını iddia edirdi. V.Ələsgərovun vəkili "əlimizdə elə faktlar var ki, dövlətçilik naminə açıqlamırıq. Ortada yüksək rütbəli, vəzifəli şəxslər tərəfindən törədilən faktlar var" deyə, mediaya bildirmişdi. Bundan sonra, konkret desək, həmin ilin may ayında V.Ələsgərov barəsində həbs qətimkan tədbiri seçildi.

15 il Naxçıvan MTN-ə rəhbərlik edən, öz qəddarlığı ilə tanınan, nazirliyin zirzəmisini işgəncə məkanına çevirən Vəli Ələsgərov Eldar Mahmudovun göstərişi ilə Naxçıvan rəhbərliyinin telefonlarını dinlədiyi, kompromat xarakterli materiallar toplayıb Bakıya ötürdüyü haqda iddialar da vardı.

Naxçıvanda "İşgəncələr kralı" kimi ad çıxaran Vəli Ələsgərovun vəkilləri onun həbsindən sonra hüquqlarının pozulması, həbsdə döyüldüyü barədə bəyanatlar yaysalar da, hüquq müdafiəçilərinin bu xəbərlərə reaksiyası olmadı. Naxçıvanda isə Eldar Mahmudovun muxtar respublikadakı "görən gözü, eşidən qulağı" olan Vəli Ələsgərovun daha sərt cəzalandırılması çağırışları oldu.

Media Vəli Ələsgərovun bu müraciətinə müsbət yanaşılacağını, onun bağışlanacağını inandırıcı hesab etmir.

Nəzərə alsaq ki, "Əfv haqqında" əsasnaməyə görə cəzanın yarısını çəkən məhkum əfv üçün müraciət hüququ qazanır. Vəli Ələsgərovun isə 2016-ci ildə məhkum olunmasını nəzərə alsaq, hüquqi olaraq onun əfv üçün şansının olmadığı bəllidir.

❑ **ORXAN, Musavat.com**

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018

**Azərbaycanda yeni formalaşan hökumətdə bəzi qurumların rəhbər şəxslərinin dəyişməsi bir sıra məsələləri aktual edib. Yüksək dövlət qurumlarına yeni təyin olunan şəxslərin həmin qurumların daxilində kadr islahatları aparmaları heç də birmənalı qarşılanmayıb. Təsadüfi deyil ki, rəhbəri dəyişən əksər qurumlar daxilində çoxsaylı şəxslər vəzifələrini itiriblər.**

# Fazil Mustafa kadr dəyişikliklərinə etiraz etdi -həmkarlarından reaksiya gəldi

## Vahid Əhmədov: "Bu kadrların hamısı pis ola bilməz"
## Fərəc Quliyev: "Onların işlərinə müdaxilə etmək doğru deyil"


Fazil Mustafa


Vahid Əhmədov


Fərəc Quliyev

Milli Məclisin son iclasında Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bu məsələyə sərt şəkildə etiraz edib. "Əgər bu gün abituriyentlərin 50 faizi 200-dən aşağı bal toplayırsa, təhsillə bağlı gələcəyimizin necə olduğu indidən görünməkdədir, bu, acı tablodur" - deyən F.Mustafa məmurların yetişdirilməsi ilə yanaşı, onların qorunmasını da vacib saydı: "Hara icra başçısı, nazir, idarə müdiri təyin olunursa, öz komandasını həmin quruma gətirir, orda çalışanları isə kütləvi şəkildə işdən azad edir. Buna etiraz edənlərə isə deyirlər ki, istəyirsən, get, ver məhkəməyə! Hesab edirəm ki, Azərbaycan məmurunu qoruyacaq mexanizmlər tapılmalıdır, bunları biz belə rahatlıqla xərcləməklə nəyə nail oluruq? Qanunvericiliklə müəyyən addımlar atmalıyıq ki, kimlərsə məmurların soyqırımını gerçəkləşdirməsin".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da bu şəkildə kadr dəyişikliklərinin aparılmasını doğru saymır: "Bu heç də yaxşı tendensiya deyil. Bir nazir gedib yenisi gəlibsə, bu, o demək deyil ki, öz yaxınlarını, tanışlarını gətirib nazirliyə yerləşdirməlidir. Elə kadrlar var ki, onlar saxlanılmalıdır. Çünki dəyərli kadrlardır. Dəyişiklik olmalıdır, demirəm ki, hamısını vəzifədə saxlamaq lazımdır. Yeni nazirin strategiyası, taktikası var. Bunları və cənab prezidentin tapşırıqlarını yerinə yetirmək üçün müəyyən kadrlar lazımdır. Amma çatan kimi birini çıxarıb yerinə öz yaxınını təyin etmək doğru deyil. Fazil bəyin dedikləri tamamilə doğrudur. Ümumiyyətlə, bir nazir gedəndən sonra onun bütün kadrlarını hər yerdən çıxarmaq düzgün hal deyil. Çünki nazir 10-15 il işləyibsə, deməli, orada müəyyən fəaliyyət göstərib, işlər görüb. Bu kadrların hamısı pis ola bilməz. Gərək həmin kadrlarla 6 ay, yaxud bir il işləyəsən ki, onları tanıyasan. Birdən-birə tanımaq olmaz axı. Təcrübəli kadrlar var ki, kadr siyasətində onlara önəm verilməlidir. Bir insanı gətirib harasa vəzifəyə təyin etmək o demək deyil ki, bütün problemlər həll olunacaq. Təsərrüfatdan xəbəri olan kadrlar lazımdır. Elə sahələr var ki, o sahələri bilən kadrlar yetişdirmək çox çətindir. Kadrlar çıxandan sonra nazirlər başlayırlar ki, filan nazir filan nazirin yerini dağıtdı, filan nazir bu qədər yığdı. O nazirlər işləyəndə orada yoxlamalar gedirdi, heç bir şey üzə çıxarılmırdı. Nə oldu, bir nazir çıxandan sonra rüşvətxor, korrupsioner oldu? Bunlar mentalitetimizə yaraşan hərəkətlər deyil. Əgər nazir çalışdığı vaxtlar müəyyən rüşvətxorluğa, korrupsiyaya yol veribsə, bunu cinayətə cəlb etmək lazımdır. Yoxsa çıxandan sonra bu cür fikirlər səsləndirmək qəbul olunan məsələ deyil. Dövlətin idarə olunmasında kadr islahatlarının düzgün olması mühüm rol oynayır. Onun üçün də bu mənim tanışımdır yaxud yaxın qohumumdur, onu vəzifəyə təyin edim kimi düşüncədən azad olmaq lazımdır".

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev dəyişiklikləri normal sayır: "Kadr dəyişikliklərini təqdir edirəm. Bacarıqlı, düzgün, karyerası təmiz olanlar son dəyişikliklərdə vəzifələrə təyin olundular. Buna görə çox sevinirəm. Parlamentdəki çıxışımda da buna toxundum. Baş nazir daxil olmaqla bütün təyinatlar çox uğurlu idi. Bir şəxs vəzifə başına gəlibsə, ondan demək iş tələb olunacaq. Bu şəxs istədiyi kadrlarla işləməyi düşünür. İstənilən qurumda hamını dəyişmək mümkün deyil. Əslində hamını dəyişdirmək üçün kadr da yetmir. Aparıcı kadrlar var, bu kadrlar üzərində iş qurulursa, buna müdaxilə etmək olmaz. Əgər onun üzərinə məsuliyyət qurulubsa, ona hüquqlar da verilməlidir. Bu məsələdə Fazil bəy kimi düşünmürəm. Yaxşı kadrlar varsa, nazirlər bu kadrları işdə saxlamaqda maraqlı olmalıdırlar və düşünürəm ki, bu belədir. Amma bir məsələ də var ki, prezident seçkiləri zaman platformamda bunu demişdim, adamların peşəkarlığından, bacarığından daha çox onların dürüstlüyü daha mühüm məsələdir. Araşdırmalar zamanı hər hansı bir kadrın əvvəlki işində korrupsiya, rüşvət halları üzə çıxırsa, adam da güvənməyib normal şəxs o vəzifəyə gətirmək istəyirsə, bunu süngü ilə qarşılamağa dəyməz. Nazirlər üçün də bir zaman tanımaq lazımdır ki, dəyişikliklərdən sonra ortaya hansı iş qoyulub. Bu şəxslərin işlərinə müdaxilə etmək doğru deyil. Onların etdikləri kadr dəyişikliklərinə normal yanaşmaq lazımdır. Heç bir yerdə məmurları total şəkildə dəyişmə halları baş verməyib. Bunu heç kim deyə bilməz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Neft 80 dolları keçdi: manatı nə gözləyir?

## Ekspert: "Neftin bahalaşması, sübhəsiz, manat üçün müsbət haldır"

**Azərbaycanın dünya bazarına çıxararaq satdığı "Azeri LT CIF" markalı xam neftin 1 barelinin qiyməti 80 dolları ötüb. Təbii ki, iqtisadiyyatı və milli valyutası neftdən asılı olan ölkə üçün bu, müsbət haldır. Hesablamalara görə, qiymət bu səviyyədə qalarsa, Azərbaycanın gəlirləri ötən illə müqayisədə 9 milyard dollar artar. Bu isə həm də manatın məzənnəsinin dollara nisbətdə sabitləşməsi deməkdir.**



Azərbaycanda neftin qiymətinin aşağı olduğu, manatın ard-arda kəskin devalvasiyalara məruz qalmasından sonra Mərkəzi Bank bildirdi ki, artıq "üzən məzənnə" sisteminə keçirlər. Yeni manatın məzənnəsi iqtisadi amillərdən asılı olaraq həm qalxa, həm də azala bilər. Lakin artıq 1 ildir məzənnədə sabitlik müşahidə olunur. Bəzi iqtisadçılar hesab edirlər ki, bu, inzibati qaydada müəyyənləşmiş məzənnədir və Mərkəzi Bank manatı heç də sərbəst buraxmayıb.

Bəs neftin qiymətinin bahalaşması fonunda "üzən məzənnə"yə keçirilmə mümkündürmü?

"Yeni Müsavat"a danışan iqtisadçı Fikrət Yusifov "üzən məzənnə"nin müəyyən şərtləri olduğunu dedi: "Bir var, tam sərbəst "üzən məzənnə", bir də var müəyyən qədər nəzarət altında saxlanılıb, idarə olunan "üzən məzənnə". Bizdə ikinci haldır. Lakin bir çox iqtisadçılar bunu qəbul etmirlər və hesab edirlər ki, "üzən məzənnə" dedikdə milli valyutanın tam sərbəst buraxılmasından söhbət gedir. Əslində isə sərbəst buraxıb və eyni zamanda, proseslərə nəzarət etmək lazımdır. İnkişaf etmiş ölkələrdə də adətən bu üsuldan istifadə olunur. Bizdə də eyni qayda üzrə proseslər tənzimlənir. Manatın üzən məzənnəyə keçdiyini bəyan etmişik. Lakin hər kəsə bəllidir ki, Mərkəzi Bank bu prosesə müəyyən qədər nəzarət edir. Hesab edirəm ki, yaxın gələcəkdə də neftin qiymətinin necə dəyişməsindən asılı olmayaraq bu, belə olacaq. Neftin qiymətinin bu qədər qalxması təbii ki, manatın məzənnəsinə yalnız və yalnız müsbət təsir edə bilər. Çünki neftin qiymətini büdcədə 1 barel üçün 40 dollar həcmində müəyyənləşdirmişik. Bu gün neftin 1 bareli 80 dollara satılırsa, deməli, fərq artıq iki dəfəyə yaxınlaşır. Bu hal isə onu deməyə əsas verir ki, bizim valyuta ehtiyatlarımızın artması prosesi də sürətlənir. Yəni əgər proses bu qaydada davam edərsə, valyuta ehtiyatlarımızın həcmini də ilin sonunadək kifayət qədər artıra biləcəyik. Eyni zamanda, Mərkəzi Bank da öz valyuta ehtiyatlarını kifayət qədər artıracaq. Hər iki hal nəticə etibarilə manatın sabitliyinin daha əsaslı və təhlükəsiz saxlanması, bu sabitliyin sığortalanması demək olacaq".

Manatın bundan sonra məzənnəsində ediləcək dəyişikliklə bağlı isə iqtisadçı aşağıdakıları söylədi: "Hesab edirəm ki, 1 dollar üçün 1 manat 70 qəpik həddi bizdə eyni zamanda ixracı stimullaşdıracaq bir səviyyədir. Bundan yuxarı və ya aşağı səviyyəyə getmək isə məqsədə uyğun deyil. Xüsusilə də manatın möhkəmlənməsi istiqamətində onun 1 dollar üçün 1 manat 70 qəpik həddən aşağı enməsinə yol vermək lazım deyil. Çünki biz, indiki dönəmdə qeyri-neft sektorunun inkişafı istiqamətində çox ciddi işlər görüb, addımlar atırıq. Eyni zamanda, bu sektorda ixracın da həcminin artırılması istiqamətində ciddi işlər görülür. Cari ilin 3 ayının nəticələri onu deməyə əsas verir ki, ötən illə müqayisədə qeyri-neft sektorunda ixracın həcmini 30 faizədək artıra bilmişik. Bu isə yaxşı rəqəmdir. Belə bir artım templərinin əldə edildiyi dönəmdə manatın bahalaşması proseslərə mənfi təsir edə bilər. Ona görə də buna getmək lazım deyil. Bir məsələ də var ki, 2014-cü ildən neftin qiymətində baş verən hallar eyni zamanda bizim üçün bir yaxşı mənada dərs oldu. Gördük ki, neftin qiymətlərinə bir o qədər də güvənmək olmaz. Sadəcə olaraq, indiki dönəmdə neftin qiymətinin artmasından əldə etdiyimiz mənfəətlə real sektorun inkişafını hərtərəfli bərqərar etməliyik. Onun hərtərəfli olaraq, daha sürətli inkişafına təkan verməliyik ki, iqtisadiyyatımızın neftdən asılılığını optimallaşdıra bilək. Hesab edirəm ki, hökumət də artıq bu kursu çox ciddi şəkildə tutub və aparır. Ona görə də manatın yenidən möhkəmləndirilməsinə ehtiyac yoxdur. Belə bir addımın atılması indiki vəziyyət üçün məqsədəuyğun deyil".

❑ **Əli Rais, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018

**Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi ilə bağlı iyunun 26-da Azadlıq meydanında hərbi parad keçirilməsi planlaşdırılır. Bu barədə Müdafiə Sənayesi Nazirliyi məlumat yayıb. Məlumatda qeyd olunur ki, ötən ilin analoji dövrü ilə müqayisədə ixrac olunan məhsulların həcmi iki dəfə artıb. MSN müəssisələrində müdafiə təyinatlı məhsulların çeşidləri 1200 növə çatdırılıb: "Müdafiə Sənayesi Nazirliyinin yeni texnikaları iyunun 26-da Bakıda keçiriləcək Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyinə həsr olunmuş hərbi paradda da nümayiş olunacaq".**

# Azərbaycan ordusu möhtəşəm hərbi parada hazırlaşır

## Düşmənə sanballı güc nümayişi olacaq paradda bütün növlərdən yeni silahlar nümayiş olunacaq; "Türk şahinləri" səmamızda süzəcəklər...



Azərbaycan tarixində ilk parad keçirilməsi 1918-ci ildə Bakıda Qafqaz İslam Ordusunun zəfər yürüşünə təsadüf edir. Bakını erməni daşnakları və kommunistlərin işğalından azad etmiş Qafqaz İslam Ordusu indiki İstiqlaliyyət küçəsi ilə zəfər yürüşü keçirib. 1920-ci ilin 28 aprelində Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olunandan sonra hərbi paradın məzmunu dəyib. Belə ki, sovet Azərbaycanında paradlar adətən 1 Mayda - Zəhmətkeşlərin Həmrəylik Günü olunub.

Azərbaycanın müasir hərbi parad tarixinə gəlincə, mərhum prezident Heydər Əliyevin 1998-ci il 22 may tarixli fərmanı ilə AXC hökumətinin ilk hərbi hissəni təsis etdiyi tarix - 26 iyun hər il Azərbaycan Silahlı Qüvvələri Günü kimi qeyd olunur.

Yuxarıda qeyd etdiyimiz kimi bu il də Azərbaycanda hərbi paradın keçirilməsi planlaşdırılır. Hərbi paradlar eyni zamanda güc nümayişi, düşmənə verilən sətiraltı mesaj kimi də xarakterizə olunur. Bu il ölkədə keçiriləsi planlaşdırılan hərbi parad digərlərindən nə ilə fərqlənəcək?

"Yeni Müsavat"a danışan hərbi ekspert Üzeyir Cəfərov bildirib ki, bu il çox möhtəşəm parad keçiriləcək: "Bu tədbirin əhəmiyyəti hər mənada çox böyükdür. Azərbaycan indiyə qədər bir neçə hərbi parad keçirib. Bu il də bildiyim qədər müdafiə nazirinin rəhbərliyi altında çox böyük bir parad hazırlanır və onun məşqləri də həyata keçirilir. Paradda yeni silahlar da olacaq. O silahları Müdafiə Nazirliyinin rəhbərliyi ölkə başçısı ilə razılaşdırandan sonra parada çıxara bilir. Bir neçə silah növünün nümayişi planlaşdırılır. Bildiyim qədəri bu parad bütün tədbirlərdən fərqli olacaq. 100 illiyə qardaş Türkiyənin Silahlı Qüvvələrindən də "Türk şahinləri" qatılıb, Azərbaycan səmasında öz məharətlərini göstərəcəklər. Sözsüz ki, düşmənə və bütün dünyaya Azərbaycan Silahlı Qüvvələrinin bu günədək əldə etdiyi nəticəni göstərməyə çalışacaqlar. Çox intensiv məşqlər gedir. Şəxsən müdafiə naziri Zakir Həsənovun və baş qərargah rəisi Nəcməddin Sadıqovun rəhbərliyi altında bütün güc strukturlarının parad üçün hazırlanmış kontingenti, Bakı ətrafında olan hərbi hissələrin birində hazırlıqlarını həyata keçirirlər. Arzu edək ki, parad təkcə Bakıda deyil, tezliklə işğaldan azad olunacaq ərazilərimizdə də keçirilsin. Bildiyim qədər paradda Qarabağ savaşında xüsusi fəallıq göstərmiş insanların təqdimatı da həyata keçiriləcək. 2016-cı ilin aprel döyüşlərində fərqlənən insanların həm Azərbaycan televiziyası, həm də mətbuat vasitəsilə təqdimatı planlaşdırılır. Zəngin bir proqram hazırlanıb və bu, Müdafiə Nazirliyinin rəhbərliyi, ölkə başçısı tərəfindən təsdiq olunub. Hamı böyük səylə hazırlaşır. Düşmən də bunu görəcək və çox narahatdır. Ermənistanın yeni müdafiə naziri və dəstəsə iki gün bundan öncə Naxçıvana yaxın ərazilərə baş çəkdilər. Ölkə başçısının Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunda olması, orada olan bir neçə silahların düşmənə çox böyük narahatlıqlar yaşada biləcəyi mesajını verməsindən sonra Ermənistan tərəfi narahatdır".

Ekspert parad ənənəsinin formalaşması və bunun mənası barəsində də danışıb: "Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu hər il dünya ordularının reytinqini hazırlayır. Bu reytinqdə Azərbaycan böyük uğurlar əldə edib. Son illərdə Azərbaycan Silahlı Qüvvələri ayrı-ayrı ölkələrdən ən müasir, yeni 4-cü nəsil silah-sursat alıb, öz silahlı qüvvələrini NATO-nun müxtəlif tədbirlərində təqdim edib. İndiyə kimi Azərbaycan bir neçə sülhyaratma missiyasında iştirak edib. Kosova, İraq, hal-hazırda Əfqanıstanda da şəxsi heyətin sayı artırılıb. Sözsüz ki, parad ordunun gücü, qüdrətidir və düşmənə də bir mesajdır. Prinsipcə bizim düşmənə nəyisə göstərməyə ehtiyacımız yoxdur. Yeni Azərbaycanın şəxsi heyəti say baxımından, əldə etdiyi silah-sursatın miqyasına görə düşməndən qat-qat fərqli durumdadır. Yalnız bəzi siyasi məsələlərə görə biz, bu gün torpaqlarımızın işğal altına alınması ilə üz-üzəyik. Ancaq bunun da yəqin ki, bir məntiqi sonu olmalıdır və olacaq. Sözsüz ki, bu paradın da əhəmiyyəti odur ki, burada yeni elementlər nümayiş olunacaq. Əvvəlki paradlarda gördüyümüz şablonlarla yanaşı, yəni şəxsi heyətin keçidi, döyüş texnikasının nümayişindən başqa, bəzi yeni silahlar da göstəriləcək ki, bu silahların da çox böyük əhəmiyyəti var. Bu əhəmiyyət təkcə Quru Qoşunları üçün deyil, Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri üçün də alınmış texnikalardır. Yəni silahların istifadəsi həm quruda, həm də suda bizim üçün böyük əhəmiyyət daşıyır. Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı işlərin həyata keçirilməsində həmin silahların çox böyük rolu olacaq. Bir sözlə 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrini həm geyim, həm də silah-sursat baxımından əvvəlki illərdən fərqli durumda görəcəyik".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Amnistiya səviyyəsində böyük əfvə sayılı günlər qaldı

## 500-dən çox məhbusun əfv olunacağı gözlənilir



**"28 May - Cümhuriyyət bayramı ərəfəsində əfv amnistiya səviyyəsinə akt olacaq. Əvvəlki illərdəki əfvlərin hamısından say etibarı ilə daha çox məhbus əfv ediləcək". Bu barədə "Yeni Müsavat" qəzetinə Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü Rəşad Məcid məlumat verib.**

Komissiyanın üzvü bildirib ki, Əfv Məsələləri Komissiyası sənədləri yekunlaşdırıb, prezident İlham Əliyevə təqdim edib: "Bu ilin fevral ayından işə başlayan Əfv Komissiyası əvvəlki illərə nisbətən daha məhsuldar işləyib. Komissiyanın hər iclasında yüzdən artıq, ümumilikdə 1500-ə yaxın sənədə baxılıb. Hər sənəd bir insan taleyidir. İclaslar çox gərgin və məhsuldar keçdi. Güman ki, bu həftə prezident əfv sərəncamı imzalayacaq. Müraciət edənlərdən 500-dən çox məhbusun əfv edilməsi gözlənilir. Bu da xeyli insanın, ailənin sevinci deməkdir".

R. Məcid onu da qeyd edib ki, Komissiyanın iclasında şəxsən müraciət edənlər, Komissiyanın sədrinə, üzvlərinə, yaxud prezidentə müraciət edənlərin işlərinə baxılıb. Bəzi məhbuslar var, şəxsən müraciət etməyib, onların adlarını İşçi Qrupu tərəfindən təqdim olunub. Onların işinə baxılmır. Əfv Məsələsi Komissiyasında müxtəlif cinayət törətmiş insanların müraciətlərinə baxılır. Onlardan eləsi var ki, törətdiyi cinayətlərə baxanda cinayətin ağırlığına görəndə heç bir normal insan əfv olunmasını istəməz.

"Ömürlük məhbuslar məsələsi hər dəfə Əfv Komissiyasının iclasında gündəmə gəlir. 20-25 ildən çox yatan məhbuslar var ki, onlarla bağlı hansısa ümidverici addım atılacağına ümid edirlər. Bununla bağlı müzakirələrdə qərara alındı ki, komissiya üzvü olan hüquq-mühafizə orqanlarının rəhbərləri bu barədə müzakirələr aparsın və gələcəkdə bu məsələni gündəmə gətirsinlər, Komissiyanın iclaslarına çıxartsınlar", - deyə Rəşad Məcid əlavə edib.

❑ **Ləman Mustafaqızı,**
**"Yeni Müsavat"**

# Zöhrab Mnatsakanyanla danışaqmı?



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Nikol Paşinyanın ardınca Ermənistanın yeni xarici işlər naziri Zöhrab Mnatsakanyan Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ ərazisinə gəldi. Ardınca Ermənistanın yeni müdafiə naziri Davit Tonoyan torpaqlarımızda peyda oldu, 5 gün davam edən birgə "Ermənistan-Artsax" (!) hərbi təlimlərinin yekunlarının müzakirəsinə qatıldı. Əslində erməni generallarının toplaşdığı o salona bircə dron bəs edərdi...**

Ancaq bəlkə də Paşinyanı gətirən vertolyot hədəfə alınsaydı, nə Zöhrab Qarabağa gəlməyə cəsarət edərdi, nə də Davit. Təəssüf doğuran budur ki, bu aralar bizim xarici siyasət idarəmiz də gərəkəni etmədi, ənənəvi bəyanatlardan kənara çıxmadı. Xüsusilə də cənab nazir Elmar Məmmədyarovun "danışıqlara hazırıq" bəyanatı etiraz doğurdu. Azərbaycan prezidenti işğalçı ölkəyə və havadarlarına İrəvan və Zəngəzur xəbərdarlığı edir, Naxçıvandakı uzaqmənzilli raketləri xatırladıb düşməni ağıllı olmağa çağırır, nazirimizsə... Ölkənin birinci şəxsi işğalçıya savaş xəbərdarlığı edərkən "danışıqlara hazırıq" bəyanatının səsləndirilməsi qəbulolunmazdır. Özü də Paşinyanın başından böyük danışmasından sonra...

Rəsmi Bakı Ermənistan rəhbərliyini danışıqlara vadar etməlidir, beynəlxalq səviyyədə basqıları ilə, düşmənin təxribatçı hərəkətlərinə kəskin və operativ reaksiyaları ilə. Əks təqdirdə paşinyanların hakimiyyətdə olduğu dönəmdə də əvvəlkindən fərqli heç nəyə nail ola bilməyəcəyik Qarabağla bağlı.

Çox həssas bir mərhələyə adlamışıq. Dünənə qədər bəlkə də zaman bizim xeyrimizə işləyirdi. Amma indi bunu deyə bilmərik. Ermənistan əhalisinin 2050-ci ildə 300 min yox e, lap 1 milyon azalmasının da Qarabağ məsələsinə heç bir isti-soyuğu olmayacaq. Reallıq budur ki, məsələ ermənilik deyil, onu idarə edən güclər var. Qarabağ məsələsində eyni mövqeni paylaşan güclər.

Moskvanın Bakıya cavabını oxuduq. Rusiyalı diplomat Aleksey Pavlovskinin Qarabağ separatçıları ilə görüşünə bəraət qazandırdılar. Təbii ki, "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil" deyən Lavrovun rəhbərlik etdiyi qurumun nümayəndəsindən başqa mövqe gözləmirdik. Amma bu cavaba sərt təpki vermək hüququmuz varkən susmağımız separatçıların əl-qolunu açacaq. Qarabağ separatçıları ilə görüşləri adi hala çevirən Rusiya hökuməti 1 milyondan çox azərbaycanlını öz ətrafında birləşdirən diaspor təşkilatımızı qeydiyyata almır. Münasibət ortada.

Digər həmsədr ABŞ-in münasibəti də bəllidir. Baş nazir seçiləndən 12 saat sonra qanunsuz olaraq Qarabağa gələn Paşinyana təbrik yolladı prezident Tramp. Üstəlik, ABŞ Konqresində Ermənistana yardımın artırılması müzakirə mövzusudur.

Dağlıq Qarabağ rejiminin başçısı Bako Saakyanın ABŞ-a səfərini və Konqresin inzibati binasında tədbir keçirməsini də unutmamışıq. Həm Moskva, həm də Vaşinqton davamlı şəkildə erməni separatçılarının "tərəf" kimi masaya qaytarılmasına çalışır. Paşinyanı danışdıran da onlardır.

Avropa Şurasında Azərbaycana qarşı hücum kampaniyası təsadüfə bənzəmir. Bu, Səməd Seyidovun məsələsi də deyil. Azərbaycanı Avropa qurumlarından uzaqlaşdırmağa çalışırlar. Xocalı qatillərinə alternativsiz söz demək imkanı yaratmaq üçün. Fələstin məsələsini "həll edən" dairələr indi də Qarabağla bağlı hərəkətə keçiblər. 100 il əvvəl Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakını aylarla əngəlləyən, ermənilər isə ağuşuna alan dairələrin varislərinin siyasəti dəyişməyib. Onda Ermənistanın yaradılmasına dəstək oldular, indi də ikinci erməni dövlətini qurmaq istəyirlər.

Bu durumda ermənilər çevik manevrlər edir, Rusiyanın dalanda olduğu şəraitdə "qərbyönümlü" görüntüsü yaradılır, Avropa İttifaqı ilə saziş imzalayıb əlavə yardımlar qoparır, Qərb təhsili almış kadrlar vəzifələrə təyin edirlər. Belə bir durumda bizim sadəcə "Ermənistanla danışıqlara hazırıq" mövqeyindən çıxış etməyimiz yaxşı heç nə vəd etmir. Bu gün danılması zəruri olan ünvanlar başqadır. Avropa, Amerika, lap elə Rusiya ilə açıq danışmaq zamanıdır. İndi danışmağa gərək olmayan tək subyekt Ermənistandır. Ermənistanın xarici işlər naziri (!) Qarabağdan bizi hədələyirsə, daha onunla nə danışasan, niyə danışasan?! Qarabağa getmək haqqı cənab Elmar Məmmədyarovundur, hər bir Azərbaycan vətəndaşı kimi. Bizim nazir beynəlxalq qurumlardan bu haqqın bərpasını tələb etməlidir. Uzaqvuran raketlərimiz varkən "uzaqvuran diplomatiya"ya malik olmalıyıq...

***P.S.*** Yazı çapa hazırlanarkən Naxçıvanda bir hərbçimizin şəhid olduğu xəbəri gəldi. İki gün əvvəl Ermənistanın müdafiə və xarici işlər nazirləri Naxçıvan istiqamətinə getmişdilər. Bеləri ilə yalnız silah danışmalıdır. Allah şəhidimizə rəhmət eləsin!

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018

# Türkiyədəki kritik seçkilərə 33 gün qaldı - şanslar

## Toğrul İsmayıl: "Ya ilk turda Ərdoğan qazanacaq, ya da..."

**Türkiyədə keçiriləcək növbədənkənar prezident və parlament seçkilərinə 34 gün qalır. Seçki kampaniyası hər keçən gün qızışır. Bu arada qardaş ölkənin "SONAR Araşdırma" mərkəzi keçirdiyi sosial sorğunun nəticələrini dərc edib. Bu nəticələrdən çıxış etsək, Türkiyədə iqtidar dəyişikliyi istisna edilmir.**



Bu nəticələrə görə, birinci turda hazırkı prezident Rəcəb Tayyib Ərdoğan 42, Cümhuriyyət Xalq Partiyasının namizədi Məhərrəm İncə 21,91, İYİ Partiya başqanı Maral Akşener 21, HDP-nin keçmiş lideri Səlahəddin Dəmirtaş 11,01, Səadət Partiyasının başqanı Temel Karamollaoğlu 2,10, Vətən Partiyasının başqanı Doğu Perinçək 1,98 faiz səs toplayacaq. Sorğunun nəticələrinə görə, böyük ehtimalla, prezident 8 iyulda keçiriləcək 2-ci turda seçiləcək. Sorğunun səhv payının 0.99-1,81 faiz arasında olduğu bildirilir.

Məlumat üçün bildirək ki, M.Akşener artıq bəyanatla çıxış edərək, ikinci tura özünün deyil, M.İncənin qalacağı təqdirdə, qeyri-şərtsiz ona dəstək olacağını bildirib. İki liderin birgə səsi 43 faiz təşkil edir və bu, Ərdoğanın 42 faizini keçir. Bundan başqa, HDP də Dəmirtaşın ikinci tura keçə bilməyəcəyi təqdirdə İncənin namizədliyini dəstəkləyə biləcəklərini açıqlayıb. Bütün bunlar ikinci tur olarsa, müxalifətin böyük ehtimalla qalib gələcəyini göstərir.

Bir maraqlı fakt da budur ki, "SONAR Araşdırma" 2014-cü il seçkiləri zamanı da sorğu keçirmiş və Ərdoğanın 53,3 faiz səslə qalib gələcəyini açıqlamışdı. O zaman Ərdoğan 52 faizlə seçkiləri udmuşdu.

Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl cürbəcür qurumların sorğu keçirdiklərini bildirdi: "Partiyaların özləri də sorğu keçirirlər. Bu sorğularda da fərqli rəqəmlər var. Kimin haqlı və ya haqsız olduğunu demək olduqca çətindir. Çünki bəzən bu nəticələr dəqiqliyi ilə göstərmir. Ötən ilki seçkilərlə bu seçkiləri bəzən müqayisə edirlər. Burada unutmamaq lazımdır ki, Türkiyədə ilk dəfə başqanlıq sistemində Cümhurbaşqanı seçilir. Buna türk cəmiyyətinin necə bir təpki verəcəyi tamam başqa bir mövzudur. Bu sistemin gerçəkləşməsi üçün haradasa başa-baş səsvermə olmuşdu. O zamandan bu günə qədər bir çox şeylər dəyişib. İqtidar vəd edirdi ki, bu sistem qurulunca böhran bitəcək, iqtisadiyyat düzələcək, amma gözlənilənlər olmadı. Onu da unutmamaq lazımdır ki, Ərdoğan bir lider olaraq ciddi şəkildə səs potensialına sahibdir. Digər liderdə bu səs faizi partiya üzərindədir. Seçkiöncəsi MHP ilə AKP arasında "Cümhur" ittifaqı yaradılıb. Digər tərəfdə də müxalifət koalisiya yaradıb. İdeologiyaları fərqli olan partiyalar bir araya gəliblər. Bunların hər biri prezidentliyə öz namizədini irəli sürüb. Amma görünən odur ki, səs faizi sıralamasında Ərdoğan yenə də öndədir. İkinci turun olub-olmayacağı barədə deyə bilərəm ki, hər zaman ehtimal var. Türkiyə xalqı nə istədiyini çox yaxşı bilir. Bilirsiniz ki, bir dəfə seçkilərdə AKP 100-də 50 faiz yığdı. Amma koalisiya qurulmadığı üçün təkrar seçkilərə gedildi və hakim partiya qazandı. Burada iki yol var, ya ilk turda Ərdoğan qazanır, ya da ikinci tur olur. İkinci turda əsas məsələ odur ki, prezidentliyə namizəd kim olacaq. Akşenermi, İncəmi, yaxud başqasımı? Bunlar çox ciddi sualardır. İkinci tur olarsa, burada çox ciddi siyasi bazarlıqların olacağı indidən məlumdur. CHP namizədinin HDP tərəfindən dəstəklənməsi bəzi problemlər yarada bilər. Bu dəstək müxalifət arasındakı vəziyyəti dəyişə bilər. Müxaliflər içərisində milliyyətçi sağ görüşə sahib insanlar bəlkə ikinci turda buna təpki olaraq Ərdoğanın namizədliyini dəstəkləyə bilərlər - HDP-nin dəstək verdiyi namizədin qalib gəlməməsi üçün. Burada versiyalar olduqca çoxdur. Türkiyədə əsas olan seçkilərin demokratik şəkildə keçirilməsidir. Düşünürəm ki, seçkiyə qalan müddət ərzində çox şeylər dəyişə bilər. Burada iqtisadi göstəricilər, siyasi məsələlər də var. Dolların sürətlə yüksəldiyi, iqtisadiyyatda böhranın olduğu dönəmdə hələ iqtidar partiyasının səs faizinin 40-in üzərində olması onu göstərir ki, oturuşmuş səsə sahibdirlər. Müxalifətdə bunun olub-olmamasına millət vəkilliyi namizədliyinə namizədlər açıqlanandan sonra baxmaq lazımdır. Çünki bunlar məlum olandan sonra küskünlər dəstəsi ortaya çıxacaq. Nəticədə göstəricilər yenə dəyişə bilər".



Politoloq HDP-nin ikinci turda İncəni dəstəkləyəcəkləri barədə bəyanatının hazırda nəticələrə təsir etmədiyini düşünür: "İlk turda bu təsirsizdir. Çünki bu turda hər kəs öz partiyasına və onun namizədinə səs verəcək. Seçkiöncəsi CHP-dən bir neçə deputatın istefa verərək, İyi Partiyaya keçməsi çox ciddi siyasi taktikadır. Çünki əvvəl 4 partiya parlamentdə təmsil olunurdusa, indi məclisdə daha çox partiya təmsil olunacaq. Çox dəyişik proseslər gedəcək. Doğu Perinçəkin Ərdoğanın namizədi olduğu deyilir, bu doğru deyil. Vətən partiyasının 2%-ə yaxın səsi sorğuda göstərilib. Bunun şişirdilmiş rəqəm olduğunu düşünürəm. İndiyə qədər bu partiya belə göstərici heç zaman göstərməyib. Lap tutaq bu faiz var, amma yenə də 100-də 42% üzərindən hərəkət etsək, bu səs faizi ikinci turun önünü kəsə bilmir. "Cümhur" ittifaqı ilk turda qazanmaq istəyir. Bu ittifaqı digərindən fərqləndirən odur ki, onların namizədi vahiddir, nə istədikləri açıq şəkildə ortadadır. Amma müxalifətdə hər kəs Ərdoğana qarşı birləşib, lakin partiyalar öz namizədini irəli sürüblər. Bu həm avantaj, həm də dezavantajdır. Kütlə baxımından avantajdır. Lakin sonrakı dönəm üçün bu dezavantaja çevriləcək. Çünki ikinci tur olduğu zaman təkrar bazarlıqlar məsələsi ortaya çıxacaq. Biz Ərdoğana rəqib olan bütün namizədləri müxalif kimi görürük - həmçinin Doğu Perinçəki. Açığı, onun namizədliyini ilk turda geri çəkəcəyini düşünmürəm. Çünki ikinci turda bu, onun üçün bazarlıq aləti ola bilər. 2% toplayarsa, həm "Cümhur", həm də "Millət" koalisyası ilə bazarlığa keçə bilər. Eyni zamanda müxalifətin ikinci turda bir araya gəlməsində ciddi problemlər də yarana bilər. Bu turda "Səadət" Partiyası, eləcə də, Akşener "Cümhur" ittifaqı ilə işbirliyinə gedərmi kimi məsələlər çox açıqdır. HDP bazarlığı ortaya çıxacaq və bu partiyalar HDP-yə necə baxacaqları suallar doğurur. HDP nə istəyəcək? Onların nə istəyəcəkləri məlum deyil. Əgər istəkləri Türkiyə üzərində müəyyən təhdidlər yaradarsa, tamam fərqli məsələlər ortaya çıxacaq. Biz mütəxəssislər proqnozlar veririk. Öncədən görmə bizlik deyil. Analizlərimiz mərhələlər keçdikcə olur. Barazlıqlar açıqdır, hər zaman hər şey ola bilər".

T.İsmayıl Türkiyədə eyni gündə olmasına baxmayaraq, prezident və parlament seçkilərinin bir-birindən fərqli olduğunu söylədi: "Prezident seçkilərində qalib gələnin hökmən parlamentdə də qalib gələcəyi kimi hal yoxdur. Qalib olsa belə, o qədər fərq edəcəyini, yeni təkbaşına parlamentdə üstünlük qazanacağını düşünmürəm. Burada əlbəttə, prezident seçkiləri çox vacibdir. Unutmaq olmaz ki, prezident seçkisində səs birbaşa namizədə verilir. Amma parlamentdə səs partiyaya verilir. Ərdoğanın şəxsi səsi hər zaman AKP-dən çox olub. Dövlət Baxçalinin bu anda MHP-dən nə qədər səs alacağını söyləmək olduqca müəmmalıdır. Əvvəlki versiyalardan çıxış etsək, MHP parlamentdə ciddi şok yaşamışdı. Hətta HDP-nin belə altına düşmüşdü. İndi səslərinin daha çox olacağını düşünmürəm. MHP daxilində narazılıqlar daha da artıb. Bunlar ehtimallardır, ilk turdan sonra bir daha analiz edərik. Seçkilərə qalan 33 gün Türkiyə üçün çox böyük bir sürəcdir. Toplum həssasdır. Bu həssaslığı unutmamaq lazımdır. Hazırda iqtidarın dezavantajı türk lirəsi qarşısında dolların durmadan yüksəlməsidir. Bu, birbaşa vətəndaşa təsir edir. İnsanlar liderlərini nə qədər sevsələr də, ciblərinə girən pula və evlərinə gedən ərzaqlara baxırlar. Rusiya ilə məlum kirzdə söylədiyim bir fikir var, onu istənilən seçkiyə söyləmək olar. Zamanla gerçəkləşdikcə buz dolabı televizordakı propaqanda üzərində qalib gəlir, yəni buz dolabı açanda ora boş olduqca propaqanda gəlsə belə təsir etməyəcək. İndiki vəziyyətdə türk iqtidarı üçün iqtisadi məsələləri həll etmək daha çox önəmlidir. Müxalifət daha çox vəd verər, bu da xoş qarşılanar. Lakin iqtidarın vədləri həyata keçmədikcə fərqli situasiya yaranır. Yəni iqtidar vəd verəndə, müxalifətin iqtidarda olanda nə üçün bunları etmədin kimi avantajı var. İstənilən halda Ərdoğan hazırda ən güclü lider olaraq görünür. Təkbaşına səsi olduqca yüksəkdir. Amma Akşener də lider kimi açılım etdi. CHP də İncəni ortaya atmaqla çox ciddi siyasi bir addım atdı. Məhərrəm İncə gözəl namizəddir. "Səadət" Partiyasının namizədi də çox gözəl iddiaçıdır. HDP-nin də barajı aşmaq şansları çox yüksəkdir. Bunlar bütün ssenariləri dəyişdirmək üçün ortada olan versiyalardır".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Rusiyanın Ermənistana daha hansı yeni silahı verəcəyi üzə çıxdı

**Bir neçə ay sonra Yerevan Rusiyadan aşağı radiuslu "Tor M2" zenit-raket komplekslərini alacaq. Virtualaz.org xəbər verir ki, bu məlumat Ermənistan Müdafiə Nazirliyinin xüsusi televiziya proqramında açıqlanıb.**



Zenit-raket kompleksi Rusiyanın Ermənistana silah təchizatı üçün ayırdığı ikinci güzəştli kredit (100 milyon dollar) çərçivəsində çatdırılacaq. Bu kredit razılaşması çərçivəsində Ermənistan ötən ilin sonlarında Rusiya ilə üç müqavilə bağlamışdı, amma müqavilələrin detalları açıqlanmamışdı. Müqavilələrin ümumi dəyəri 100 milyon dollardan çoxdur, qalan hissəsi Ermənistan büdcəsi tərəfindən maliyyələşdirilir.

"Tor M2" müxtəlif tipli döyüş vertolyotlarına və cəbhə aviasiyasına qarşı tətbiq edilmək üçün nəzərdə tutulub. Eyni vaxtda 4 hədəfə atəş aça bilər, atəş radiusu 10 metrdən 10 kilometrə qədər hündürlük, 15 kilometrə qədər məsafədə təşkil edir. Kompleksin modernləşdirilmiş variantı ona hərəkətdə olanda da hədəfləri izləməyə və atəş açmağa imkan verir. Kompleksin buraxılış qurğusunda 16 döyüş raketi olur. "Tor M2" kompleksinin əsas vəzifəsi quru qoşunlarını döyüş əməliyyatları zamanı havadan müdafiə etmək, komanda məntəqələrini, mühüm infrastruktur obyektlərini qorumaqdır.

Ötən il Rusiya Ermənistana "Verba" daşınan zenit-raket komplekslərinin böyük partiyasını çatdırmışdı və hesab edilir ki, məqsəd Yerevanın hava hücumlarından eşalonlaşdırılmış müdafiəsini təşkil etməklə Azərbaycanın havada üstünlüyünü neytrallaşdırmaqdır.

# “Hüseyn Abdullayev 90-cı illərin axırına qədər heç kim idi”

## **Fəzail Ağamalı:** “Çox gözəl bir nümunə var: baş nazir işləmiş Artur Rasi-zadə nümunəsi”

**“Baxış bucağı”**

**Deputat, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı ilə budəfəki söhbətimizi zəruri edən bir neçə məsələ oldu. 1992-ci ildə Azərbaycan Respublikası sosial təminat nazirinin müavini, 1993-1994-cü illərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini və naziri əvəzi olan müsahibimizlə adıçəkilən nazirliyin ətrafında gedən müzakirələrdən danışmağa, təbii ki, ehtiyac var idi. Həmçinin, deputatdan keçmiş həmkarı Hüseyn Abdullayevlə bağlı suallara da cavab almaq istədik. Təbii ki, digər aktual mövzulara da toxunduq.**

***- Fəzail bəy, bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin keçmiş rəhbərliyinin fəaliyyəti ciddi şəkildə tənqid olunur, ciddi ittihamlar səslənir. Hətta parlament müzakirələrində də ağır ittihamları eşitdik. Siz bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycanın dövlətçiliyində elə bir ciddi qaydalara əməl olunmalıdır ki, hər bir məmur fəaliyyətində böyük məsuliyyət hiss etsin. Bu məsuliyyət hissi onun başının üzərində “Domokl qılıncı” kimi asılsın ki, bu və ya digər xoşagəlməz vəziyyətlər yaranmasın. Mən vaxtilə bir müsahibəmdə də demişdim, indi də o fikirdəyəm ki, istənilən məmur ölkə prezidenti tərəfindən yüksək vəzifəyə, etimada layiq görülərkən işdən çıxdığı günü nəzərə almalıdır. Yəni işə başladığı andan son günə qədər fəaliyyətini elə qurmalıdır ki, vəzifədən gedəndən sonra onun haqqında xoşagəlməz sözlər yaranmasın. Buna çox gözəl bir nümunə var: uzun illər ölkənin boyu baş naziri işləmiş Artur Rasi-zadə nümunəsi. Baxın, görün onun ünvanına başqa sözlə deyilirmi? Mən hər zaman çox böyük hörmət bəslədiyim o kişini müdafiə edirdim. Yaşını önə çəkirdilər. Ancaq onun dövlətə sədaqətini, təmizliyini, iddiasız olduğunu hər kəs etiraf edir. İndi artıq istirahətdədir. Mən ona can sağlığı arzulayıram ki, bundan sonra çox gözəl günlər yaşasın.

Nümunə var, hər kəs belə olmalıdır. Səlim Müslümovla bağlı mən hər hansı mənfi fikir söyləmək istəmirəm. Mən onu uzun illər boyu tanımışam, biz İqtisad Universitetində bir yerdə çalışmışıq. Onu bir alim, yaxşı insan kimi də, dövlətə sədaqətli şəxs kimi tanımışam. Bilmirəm yanılmışam, səhv etmişəm, etməmişəm. Allahdan arzulayardım ki, səhv etməyim. İndi qəzetlər yazır, deyilir. Baxaq, görək orda Səlim Müslümovun nə dərəcədə günahı var, ya yoxdur. Ancaq sizə deyim, mən 3 ilə yaxın o sistemdə çalışmışam, birinci müavin olaraq, sonra 10 ay nazir vəzifəsini icra etmişəm. Deyim ki, orda bütün xoşagəlməz vəziyyəti aradan qaldırmaq üçün sistemli islahatlar aparılmalıdır, pensiya təyinatı tam elektronlaşdırılmalıdır, həkim-ekspert komissiyasının fəaliyyəti tam elektronlaşdırılmalıdır. Orada həkimlə, məmurla vətəndaş arasında təmasların səviyyəsi sıfra endirilməlidir. Bundan sonra, məncə, orada korrupsiya, rüşvət hallarına son qoymaq olar, yoxsa mümkün deyil. İstənilən nazir ideal bir insan olsa da, sistem dəyişilməyibsə, o sistemdə təmizlikdən söhbət gedə bilməz, mənim fikrim budur.

***- Seçkidən sonra həmkarlarınızdan bir neçəsi vəzifələrə təyin olundular. Bəs, keçmiş məmur kimi hansısa bir post tutmaq, yaxud elə vaxtilə çalışdığınız qurumun rəhbərliyində olmaq sizin ürəyinizdən keçdimi?***

- Mən dövlətin əsgəriyəm. Həqiqətən, bunu çox səmimi şəkildə etiraf edirəm ki, bu gün dövlətin, çox sevdiyim, pərəstiş etdiyim cənab prezidentimizin istənilən tapşırıqlarına, mənə həvalə etmiş olduğu bütün istiqamətlərə varlığımla, bir əsgər kimi hazıram, buna heç kəsin şübhəsi olmasın. Çünki mən bütün ruhumla, varlığımla ulu öndərimiz Heydər Əliyevin ideyalarına, onun dövlətçilik prinsiplərinə və prezidentimizə çox bağlı bir insanam. Bu, birmənalıdır. Ancaq açığını deyim ki, mən bu haqda düşünməmişəm. Ağlıma da gəlməyib ki, hansısa mərhələdə hansısa vəzifəyə gedə bilərəm, yaxud hansısa vəzifəyə irəli çəkilməliyəm, icra strukturlarında işləməliyəm. İndi mən sual edirəm, məgər bu gün mən dövlətçiliyə Milli Məclis səviyyəsində xidmət etmirəmmi, bu da ciddi bir vəzifə deyilmi? Və müstəqil olaraq, dövlətimizi sevərək, prezidentimizə, onun söykənmiş olduğu dəyərlərə sədaqətlə xidmət edərək millətimin yanındayamsa və çatışmazlıqları yeri gəldikcə önə çəkirəmsə, söylədiyim fikirlərimdə kifayət qədər səmimiyəmsə, qərəzdən uzağamsa, məgər bu gün cəmiyyətdə bu xidmətlərə ehtiyac yoxdurmu? Düşünürəm ki, kifayət qədər ehtiyac var. Ona görə də bu gün millət vəkili kimi mən fəaliyyətimi çox yüksək qiymətləndirirəm. Minnətdaram ki, xalqımız mənə etimad göstərib, beş dəfə məni Milli Məclisə deputat seçib. Minnətdaram ki, atmış olduğum addımlar, göstərdiyim fəaliyyət cənab prezident tərəfindən yüksək qiymətləndirilib, mənə “Şöhrət” ordeni verilib. Bu da mənə böyük etimad, böyük inam, qiymət, dəyərdir. Düşünürəm ki, Milli Məclis də - siz də uzun illərdir dəyərli jurnalist olaraq orada çalışırsınız - böyük siyasi məkandır, orada dövlətə xidmət etmək üçün imkanlar var. Mən bu imkanlardan istifadə edə, dövlətimə xidmət edə bilirəmsə, söykəndiyim dəyərlərə xidmət edirəmsə, ona sadiqəmsə, mən doğrudan da, konyukturadan uzaq çıxmasın, özümü çox məmnun, çox xoşbəxt hiss edirəm.

***- Fəzail bəy, uzun illərin parlament fəaliyyətindən danışmışkən, heç bu aralar həbsdə olan keçmiş həmkarınız Hüseyn Abdullayevə sovqat göndərmək barədə düşünmüsünüzmü?***

- Yox. Allahdan arzu edirəm ki, ona ağıl versin. İnsanın, onun ən böyük faciəsi ondadır ki, o, çaşır, hansısa səbəbdən ağlını itirir. Onun haqqında danışmaq mənə heç də xoş deyil. Amma indi sual verirsiniz, xüsusi olaraq sizin şəxsiyyətinizə hörmət olaraq demək istəyirəm ki, Hüseyn Abdullayev 90-cı illərin axırına qədər heç kim idi. O, ulu öndərin himayəsi nəticəsində böyük varidata sahib oldu, böyük maliyyə imkanları əldə etdi. Görünür, həmin maliyyə imkanları onu yolundan çıxartdı, əlinə keçən maliyyə imkanlarının əsirinə çevrildi. O, maliyyə imkanlarını idarə etmədi, əksinə, böyük maliyyə, böyük pul onu artıq özünün köləsinə çevirdi. Nəticədə o, bu pulu,



**“Baxaq, görək orda Səlim Müslümovun nə dərəcədə günahı var, ya yoxdur, bundan sonra orada korrupsiya, rüşvət hallarına son qoymaq olar, yoxsa mümkün deyil”**

bu imkanları ona verən dövlətin üzərinə getdi. Dövlətin üzərinə getdiyi üçün öz cavabını almalı idi. O, mənim timsalında cavabını da aldı. Ancaq biz səmimi ayrıldıq. Yəni məndən üzr istədi, mən də onu bağışladım. Əl tutduq, görüşdük və bununla da bitdi. Düşündük ki, oldu da, yəqin öz səhvini başa düşdü. Əgər doğrudan da mətbuatın yazdığı kimi o, Avropada dövlətin ona vermiş olduğu imkanlardan istifadə edib, dövlətin əleyhinə, antiazərbaycan qüvvələrin içərisində yer alırsa, bu, artıq onun faciəsidir. Bu faciəni yaşamağı mən heç kimə arzulamıram. Ancaq bu faciəni kimsə yaşayırsa, artıq o, taleyi ilə barışmalıdır.

***- Lakin təcridxanadan mediaya yolladığı mesajlara görə, ittihamları qəbul etmir...***

- Ola bilər. Bu da istintaq nəticəsində üzə çıxacaq. Lakin məndə də olan məlumatlara görə, Hüseyn Abdullayev Avropada Azərbaycan dövlətinə qarşı sərt mövqe nümayiş etdirib, barışmaz mövqe ortaya qoyub. Açıqlamaları, sosial şəbəkələrdə yazdıqları yetərlidir ki, onun nə düşündüyünü, nə dediyini biləsən, nəticə çıxarasan. Yəni burda boynuna almaya bilər. Ancaq axı, biz Hüseyn Abdullayevin sosial şəbəkələrdə yazdıqlarının şahidi olmuşuq. Yazıları o yazıb, kimsə onun əvəzindən yazmayıb. İndi onlara cavab ver də! Lütfən cavab ver, yazmısan, indi cavab ver! Eyni zamanda, nə siz bilmirsiniz, nə də mən, istintaq hansı sirlərə malikdir. Ancaq Azərbaycanın hüquq-mühafizə orqanları kifayət qədər peşəkardır, yetərincə öz işlərini bilən insanlardırlar. Onlar heç nə olmadan Hüseyn Abdullayevi Türkiyədən Azərbaycana götürüb gəlməzdilər. Burada nə isə var. Nə isə varsa, deməli, bu məsələ araşdırılmalıdır. Sonda hər şey hüquqi müstəvidə öz həllini tapmalıdır.

***- Bu günlərdə məlum oldu ki, son dörd ayda Gürcüstan təkcə turizmdən 800 milyon dollar gəlir götürüb. Azərbaycanın turizm potensialından çox danışırıq, hələ ki, ortada ciddi göstəricimiz yoxdur. Sizcə, niyə?***

- Siz çox ciddi bir məsələyə toxundunuz. Təbii ki, Azərbaycan turizmin imkanları baxımından böyük potensiala malikdir. Ölkə prezidentinin də iradəsi ortalıqdadır. O, turizmin inkişafını Azərbaycanın prioritet vəzifələrindən biri kimi hər zaman önə çəkib və bununla bağlı dövlət siyasətini birmənalı şəkildə ifadə edib. Məncə, onun ciddi səyləri nəticəsində bu gün ölkəmizdə turizm inkişaf etməkdədir. Lakin əlbəttə, turizmin inkişafı üçün bu faktor kifayət etmir. Ölkə prezidentinin qarşıya qoyduğu hədəflərə nail olunması üçün böyük dəstək lazımdır. Həmçinin, dövlət qurumlarının ciddi iradəsi ortada olmalıdır. Eyni zamanda turizmin inkişafı üçün bununla məşğul olan müvafiq qurumun fəaliyyəti əlbəttə, kifayət etmir. Turizmin inkişafı üçün bütün cəmiyyət, bütün qurumlar hazır olmalıdır. Bu sahəyə az və ya çox dərəcədə əlaqəsi olan qurumlar - miqrasiyadan, gömrükdən, hava limanından başlayaraq, bütün yol infrastrukturundan keçərək yüksək səviyyəli otellərin olması, yüksək səviyyəli istirahət mərkəzlərinin olması, orada yüksək səviyyəli servis mədəniyyətinin olması heç şübhəsiz ki, turizmin inkişafı üçün son dərəcədə ciddi əhəmiyyət kəsb edir. Etiraf etmək lazımdır ki, Azərbaycanın turizm sahəsindəki uğurları getdikcə genişlənir. Turizm bir çox ölkələr üçün, təkcə Gürcüstan üçün deyil, Türkiyə, Yunanıstan, İtaliya, İspaniya, Birləşmiş Ərəb Əmirlikləri üçün böyük gəlir mənbəyidir. Nədən biz bu gəlir mənbəyindən faydalanmayaq? Mənə elə gəlir ki, biz turizmi daha geniş şəkildə inkişaf etdirmək üçün artıq yeni bir mərhələyə qədəm qoymuşuq. Ölkə prezidenti 2018-ci ilin aprelində yenidən xalqın iradəsinə söykənərək prezident seçildikdən sonra yeni bir mərhələyə qədəm qoyulduğunun anonsunu verdi və bununla bağlı artıq ciddi addımlar atılmaqdadır. Baxın, miqrasiyanın, Azərbaycanın qapısındakı ciddi bir qurumun rəhbərliyi dəyişildi, oradakı mövcud nöqsanların üzərinə gedildi, onların aradan qaldırılması ciddi şəkildə önə çəkildi. Gömrük Komitəsinin rəhbərliyində dəyişiklik edildi. Mən güman edirəm ki, Səfər müəllim peşəkar bir gömrük işçisi kimi prezident tərəfindən qarşısına qoyulan vəzifələri yerinə yetirəcək, mənim buna qətiyyən şübhəm yoxdur. Tamamilə əminəm ki, həm Miqrasiya, həm də Gömrük Komitəsindəki köhnə yanaşmaların üstündən çalın-çarpaz xətlər çəkiləcək. Azərbaycanın qanunları çərçivəsində elə bir mühit yaradılacaq ki, Azərbaycana gələn bir dəfə gəlməklə kifayətlənməyəcək, həm də özünün ətrafına, yaxınlarına və sosial şəbəkələrdə belə, ölkəmizin təbliğatçısına çevriləcək, bu da Azərbaycanda turizmin inkişafında mühüm rol oynayacaq. Ölkə prezidenti Mədəniyyət və Turizm Nazirliyində dəyişiklik etdi və Turizm Agentliyi kimi yeni bir idarəçilik sistemi təsis olundu. Əlbəttə, mən Mədəniyyət və Turizm Nazirliyinin indiyəqədərki fəaliyyətinə müsbət yanaşıram. Əbülfəs Qarayev dövlətə sədaqətli bir insan kimi, ciddi bir dövlət adamı kimi, üzərinə düşən vəzifəni bu günə qədər öz imkanları daxilində yerinə yetirməyə çalışıb. Lakin görünür ki, ölkə prezidenti turizmi inkişaf etdirmək üçün Turizm Agentliyini yaradaraq, turizmi Mədəniyyət Nazirliyindən ayıraraq, xüsusi bir quruma çevirməklə bunun önəmini bir daha diqqətə çatdırıb. Mən çox arzulayardım ki, bununla bağlı Turizm Agentliyi dünyanın və elə qardaş Türkiyənin, eyni zamanda, Gürcüstanın müsbət ənənələrindən, müsbət təcrübəsindən bəhrələnsin, Azərbaycanda turizminin inkişafı üçün geniş imkanlar yaradılsın. Əminəm ki, yaxın illərdə biz bunun şahidi olacağıq. Bütövlükdə turizm infrastrukturuna yeni yanaşmalara ehtiyac var.

❑ **Elşad PAŞASOY,**
**FOTO: “YM”**

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018



# Şahzadə Harriyə təbrik əvəzi

Zamin HACI
zaminhaci@gmail.com

"Oğlunu sevən gəlinini sevər,
Qızını sevən kürəkənini"
*(Azərbaycan ata sözü)*

**Bu ingilislər də dünyanı barmaqlarına dolayıblar. İngilis barmağı ifadəsi belənçik yaranmışdır. Özünüz gördünüz: bütün dünyaya demokratiya dərsləri keçirlər, ancaq şahzadə Harri müəllimin toyunu el-aləmə yaydılar. Anlamaq olmur ki, bəs monarxiya niyə başqa ölkələrdə pisdir, Britaniyada yaxşıdır. Lap elə teatr səviyyəsində olsun. Hərçənd, belə deyildir. Misal üçün, biz azərbaycanlılar kraliça Elizaveta xalanın oğlu şahzadə Endryü müəllimi yaxşı tanıyırıq. O, vaxtaşırı gəlib bizdən Britaniyanın maraqları, o cümlədən şəxsi cibişdanı üçün xeyli şey-zad qoparıb aparan bir yoldaşdır. Əvəzində də Dumanlı Albionda bizim hökuməti aydınlığa çıxarır.**

Doğrusu mən Harri müəllimin toyundan bəzi epizodlara BBC kanalında baxdım, heç bəyənmədim. Birincisi, toy "Sonalar sonasının anası" şadlıq sarayının sütunsuz salonunda olmadısa, apar tulla. İkincisi, dəvət olunan qonaqlar arasında bəyin xalası nəvəsinin əsgərlik yoldaşının kirvəsinin bacanağı olmalıdır. Üçüncüsü, toyda qulaqbatıran musiqi verilməlidir ki, camaat yeni qabiliyyətlər öyrənsin, məsələn, mən Azərbaycan toylarında 3-4 dəfə iştirak edəndən sonra artıq dodaq hərəkətlərindən danışığı anlayıram. Halbuki, bunu öyrənmək üçün casuslar-zadlar xüsusi imtahan verirlər, kurs keçirlər. Dördüncüsü, masaya 77 cür zir-zibil yemək adıyla düzülməlidir, bunlardan mındar olmuş bildirçinin skeleti, 3 toy və 7 sünnətdən qalmış "Bezar" salatı (Sezar salatının xüsusi, milli növüdür), Hindistan camışının pələng ağzından çıxmış nadir antrikotu, rezin Kitayski düyüdən brezent qazmaqla bahəm süfrələrin şahı aş yeməyi, içində qoyun ətinin nanozərrəciklərinə rast gəlinən ağac yonqarlı lüləkabab və sairə qeyd edilməlidir. Əvvəldə xınayaxdı, ortada qız toyu, axırda isə yengə prosedurları olmalıdır. Prins Harri müəllimin toyunda bınnarın biri də yox idi.

Əlbəttə, mən başa düşürəm, şahzadə Harri rəhmətlik Diana xanımın yurdunda qalmış, bir növ yadigar oğludur, o baxımdan ingilis-dingiliş jurnalistikasının bu tədbirə marağı anlaşılandır. Yəqin arvadın ruhu o biri dünyadan baxıb xeyli sevinmişdir. Allah rəhmət eləsin, biz müsəlmanlar üçün də ağır dərddir - Dodi müəllimə görə. Nə isə... Ancaq yenə də mən bu mərəkədən bir şey anlamadım (artıq oxucular fikirləşəcəklər ki, paxıllıqdan yazıram - düz eləmirsiniz). Çünki şahzadə Harri Britaniya tax-tacına iddiaçılar sırasında düz altıncı yerdədir. Yəni, buna qədər hələ 5 nəfər taxta çıxıb, hökmranlıq eləyib, iraq olsun, ölməlidir ki, Harri müəllimin bəxtinə gün doğsun, bu da kral olsun. Üstəlik, ömrü uzun olsun, Elizaveta xala da möhkəm dirənibdir, az qala yüz ildir krallığı əldən vermir.

Dünyada taxt-tac ətrafında belənçik maraqlı əhvalatlar olur, biz də öyrənməyə borcluyuq. Nə biləsən... Həmçinin, güman edirəm bu monarxiya əhvalatlarına dünyanın marağının artmasında nəsə vardır. Özünüz baxın, son illər monarxiya haqda filmlər xüsusi populyarlıq qazanır. Neçə ildir bəlkə 7 milyard adamın yarısı ağzını ayırıb "Taxt-tac oyunları" ("Game of thrones") serialına baxmaqdadır. Halbuki, mən bir-iki seriyasına baxandan sonra anladım ki, bu kinonun qısa məzmunu bizim məşhur "Əjdaha qardaş özü bilər, kimi yeyər..." süjetli lətifəmizdən ibarətdir. Türkiyədə, bizdə, hətta Rusiyada Osmanlı padşahları haqda serial möhkəm dəbə minmişdir, milyonlarla adam axşam ekrana marıtlayır ki, görək sultan bu dəfə hansı arvadı ilə yatacaqdır, yaxud, hansı oğlunun gözünü çıxardacaqdır. Siz bu marağa barmaqarası yanaşmayın. Sosioloji araşdırma temasıdır. Misal üçün, yadınıza gəlirmi SSRİ dağılan ərəfədə, yenidənqurma zamanı göstərilən, ümumiyyətlə SSRİ-də göstərilən ilk Qərb teleserialının adı necə idi? Yadınıza salıram: "Kölə İzaura". Millət qul kimi yaşadığı üçün İzaura xanımın əhvalatına da böyük maraq göstərmişdi. Sanki o filmdə özlərini görürdülər.

İndi də ola bilsin hamı şahzadə, ağ atlı prins, nə bilim, adil kral həsrətiylə qovrulur.



# Bakının qızıl fürsəti - Ağ Evin seçimi

## Tramp ABŞ-a birinci kimi dəvət edəcək - prezident İlham Əliyevi, yoxsa Paşinyanı? **Azərbaycana qarşı ermeninin yeni məkrli hədəfi:** işğalçının bir əlindən Rusiya, o birindən Amerika tutsa...

**Ermənistanın yeni baş naziri Nikol Paşinyan Rusiya və Qərb (ABŞ) arasında təhlükəli "ikili oyun" aparır. Bir yandan, o, Kremlə sadiqlik bəyanatları verirsə, digər yandan, müstəsna olaraq, qərbpərəst kadrları yüksək vəzifələrə gətirir. Müdafiə, xarici işlər, ədliyyə nazirləri bu qəbildəndir. Son olaraq o, Təhlükəsizlik Şurasının sədri postuna qərbpərəst Armen Qriqoryanı qoyub. Bundan əlavə, amerikalı məşhur mütəxəssis Daron Acemoğlunu iqtisadçı məsləhətçi kimi dəvət edib - hərçənd sonuncu bu təklifi isti qəbul etməyib.**

Ötən həftəsonu İrəvanda Amerika səfiri Riçard Millzlə görüşən Nikol Paşinyan Vaşinqtondan "islahatlar, demokratiyanın inkişafı, korrupsiya ilə mübarizə və insan haqlarının müdafiəsi üçün" dəstək istəyib. Öz növbəsində Millz ərz edib ki, Ağ Ev "sadalanan hədəflərə çatmaq və Ermənistanı Amerika sərmayələrinə cəlbedici eləmək" üçün kömək göstərməyə hazırdır.

1 in.am nəşrinin şərhçisi Sərkis Arsruni isə bir az da uzağa gedərək ABŞ prezidenti Donald Trampın artıq Paşinyanı qəbul etməsinin vaxtı çatdığını yazıb. "Yeni Müsavat"ın məlumatına görə, o, hətta bu görüşün Trampa "şərəf gətirəcəyini" (!) iddia edərək ona minnət qoyub. Sən demə, işğalçı ölkə "demokratiya yönündə sıçrayış" edibmiş. Müəllifə görə, nədən Qazaxıstan və Özbəkistan prezidentləri Ağ Evə çağırılaraq qəbul edilir, amma erməni "məxməri inqilab"ın lideri Paşiyan yox?

Sitat: "Əlbəttə ki, Vaşinqtonun Mərkəzi Asiya ölkələrinə marağı geosiyasi məzmuna malikdir və NATO-nun əfqan kampaniyası ilə sıx bağlıdır. Ancaq istənilən halda, Özbəkistan prezidenti Mirzyayev ölkəsində siyasi və iqtisadi mülayimlik yaratmağa başlamasaydı, yəqin ki, Vaşinqtonda qəbul olunmazdı. Ermənistanda son baş verənlər geosiyasi çalara malik deyildi, amma ölkənin demokratikləşməsinin geridönməzliyi, beynəlxalq nüfuzunun kəskin artması kontekstində radikal və sıçrayışlı idi. Bu üzdən baş nazir Paşinyanın Ağ Evdə qəbulu hətta ABŞ prezidentinə əlavə şərəf gətirərdi".

Erməni şərhçi daha sonra yazıb: "Əgər Ermənistanın yeni hökuməti ölkənin artan nüfuzunu maddiləşdirə bilsə və nəzərə alsaq ki, İrəvan həm Tehran, həm də Vaşinqtonla isti münasibətlərə malikdir, o zaman Ermənistan İran ətrafında yaranmış böhranın önlənməsində ciddi rol oynaya bilər. Ola bilsin, bu təklif indi nəzəri görünəcək, ancaq məxməri inqilab və yeni regional reallıqlar daha fəal və təşəbbüscü xarici siyasət üçün əsaslar yaradır".

*****

İşğalçı ölkə ABŞ və İran arasında vasitəçi olacaqmış - üstəlik, Amerikadan ciddi dəstək ala-ala. Doğurdan da iştah diş altında imiş... Guya Ermənistanda demokratik inqilab baş verib. Ancaq "demokratik inqilab"ın lideri Paşinyan kurtkasını kostyuma dəyişən kimi Soçiyə qaçıb Putinə biət elədi, ona sədaqət andı içərək Ermənistanın Rusiya orbitində, Avrasiya Birliyində, KTMT-də ("Rus NATO-su"nda) qalacağına, Kremlin cızığından çıxmayacağına söz verdi, üstəlik, "aramıza heç kim girə bilməz" dedi.

Odur ki, sual ortaya çıxır: Rusiya ilə soyuq savaş dövrünü yaşayan Amerikaya Kremlə sadiq erməni başçını Ağ Evə dəvət eləmək çoxmu lazımdır? Kremldə də elə bunu gözləyirlər ki, Paşinyanın ayağı büdrəsin və dərhal ondan qurtulmaq ssenarisini işə salsınlar. Maraqlı olacaq. Baxaq görək Kremlin yanında və siyasi orbitində olub da necə qərbpərərst, "islahatçı Saakaşvili" olmaq olar.

*****

Yeri gəlmişkən, artıq ölkədə Paşinyanın islahatlarına şübhə eləməyə başlayıblar. Hətta bu xüsusda o, tənqidə tuş gəlməkdədir - ələlxüsus yerli qərbyönlü KİV-lər tərəfindən. Məsələn, bəllidir ki, Paşinyan bütün siyasi məhbusları buraxacağını bəyan etmişdi. Lakin baş nazir olandan sonra sözünü tutmadı və bildirdi ki o hakim deyil, məhkəmənin yerinə qərar verə bilməz.

"Etirazçı hərəkatın lideri ikən o, uca səslə bəyan edirdi ki, Ermənistanda siyasi məhbuslar dərhal azad edilməlidir. "Qısa müddətdə siyasi dustaqlar azad olunmalıdır. Daha bir neçə gün gözləyin və biz bu məsələləri həll edəcəyik", - deyə Paşinyan aprelin 26-da "Azadlıq" radiosunun efirində söyləmişdi. Ancaq Jirayr Səfilyanın, bir çoxları - hansılar ki, Serj Sərkisyan dönəmində siyasi baxışlarına görə həbs olunmuşdular, - hələ də azadlıqda deyillər. Niyə? Axı, məntiqlə, yeni hakimiyyət əvvəlki rejimlı mübarizə aparanları, siyasi baxışlarına görə əziyyət çəkənləri azad etməli idi. Cəmiyyətin bir əsas gözləntisi də bu idi. Bu nə inqilabdır ki, öncəki rejimlə mübarizə aparanların qapısını açmır?" "Yeni Müsavat" xatırladır ki, sitat armenianreport-dakı məqalədəndir.

*****

Sözsüz ki, Azərbaycanın əlinə işləyən bir gəlişmədir. Bu fonda Bakı böyük Cümhuriyyət əfvi ilə Amerikanın da siyasi məhbus saydığı dustaqları azad edərsə, düşmən ölkədən bir addım qabağa düşmüş olar, işğalçı ölkədəki "demokratik inqilab"ın onun xeyrinə yaratdığı yeni təbliğati effekti xeyli balanslaşdırmış olardıq.

Ümid edək ki, Paşinyanın demokratik islahatlar arzusu da puç olacaq. Hər necə olmasa, Ermənistan Rusiyanın vassalı olaraq qalır və azad olmayan ölkədə, xüsusən də Rusiyadan asılı satellit ölkədə dərin islahatlar aparmaq mümkün görünmür. Bu xüsusda Bakının islahatlar üçün əslində daha böyük şansı, fürsəti var.

Belə ki, siyasi məhbusların azad olunmasının ardınca erkən və demokratik parlament seçkilərinin keçirilməsi ölkəmizin Qərb, ABŞ yanında beynəlxalq imicini xeyli yaxşılaşdırar, xaricdə erməni çevrələrinə bağlı məkrli dairələrin, "sapı özümüzdən olan baltalar"ın əleyhimizə əks-təbliğat arqumentini kəsərsiz edərdi. Yekun etibarilə Qarabağ məsələsində də daha uğurlu mövqeyə çıxmış olardıq.

Onu da xatırladaq ki, eks-prezident Barak Obama 8 illik prezidentliyi dövründə nə Azərbaycan, nə də Ermənistan prezidentlərini Ağ Evə dəvət etməyib. Heç olmasa, Dağlıq Qarabağ məsələsinə görə buna getməyib. Tramp üçünsə belə imkanlar qalır. Hələlik o, yalnız İlham Əliyevə və Nikol Paşinyana seçkilərlə bağlı təbrik məktubları ünvanlamaqla kifayətlənib. Məktublarda Qarabağ məsələsinə də toxunub. Görəsən, Ağ Evə o, birinci kimi dəvət edəcək?

*****

Heç şübhəsiz ki, vassal Ermənistanla müqayisədə balanslı siyasət yürüdən və əlverişli geosiyasi mövqeyə malik Azərbaycan Amerika üçün qat-qat böyük dəyərdədir. Bura həm də ölkəmizin Avropa üçün energetik önəmi daxildir. Ancaq unutmaq olmaz ki, mənfur qonşular Azərbaycanın bu önəmini işğalçı ölkənin demokratik imicini yaratmaqla neytrallaşdırmağa girişiblər. Bununla da Qarabağ məsələsində yeni və daha effektli təbliğati rıçaq əldə etməyi hədəfləyiblər: antitezis də belədir ki, dünya Qarabağı niyə sivil ermənilərə yox, antidemokratik Azərbaycana verməlidir?

Paşinyanın əsas məkrli planı isə təxminən belədir: Ermənistanın bir əlindən Rusiya, o birindən ABŞ-ın tutmasına nail olmaq. Yəni Rusiyadan təhlükəsizlik qarantı, ABŞ-dan isə "islahat" oyunu qarşılığında böyük maliyyə-siyasi dəstək almağı düşünürlər. Azərbaycan üçün ən xoşagəlməz vəziyyət bu ola bilər və Bakı situasiyanın bu cür inkişafını pozmağı bacarmalıdır.

*****

"Demokratik işğalçı" anlayışı mövcud olmasa da, biz gərək XXI əsrin reallıqlarını, "yazılmayan qanunları"nı unutmayaq. Ən azı xristian amili, erməni lobbisi faktoru bu təbliğatda sövq-təbii onların xeyrinə işləyir. Nəzərə alsaq ki, torpaqlarımızın savaş yolu ilə azad edilməsi üçün də ölkəmizin yetərli demokratik imici vacibdir, o zaman Azərbaycan demokratikləşmə məsələsində Ermənistandan daim bir addım öndə olmaq zorundadır.

Buna potensialımız artıqlaması ilə var. Ən azından, 100 illiyinə hazırlaşdığımız Cümhuriyyət ənənələrinə, hazır "resept"ə və böyük dəyişikliyə start verən dövlət başçısının israrlı iradəsinə sahibik...

❑ "Yeni Müsavat"ın analitik xidməti

**Rusiya prezidenti Vladimir Putin ötən həftə yeni hökuməti formalaşdırdı. Köhnə nazirlər sırasında vəzifəsinə yenidən təyin olunanlardan biri xarici işlər naziri Sergey Lavrov oldu.**

# Putinin Lavrov sevgisinin sirri

## Onun yenidən vəzifədə saxlanması Qarabağ məsələsinə nə vəd edir?



Qeyd edək ki, bir müddət öncə Sergey Lavrovun seçkilərdən sonra vəzifədən gedəcəyi xəbərləri yayılmışdı. Xəbərlərdə hətta bildirilirdi ki, o, yorulduğu üçün işindən getmək istəyir. Lakin prezident Vladimir Putinin inadlı xahişindən sonra prezident seçkisinədək vəzifədə qalmağa razılaşdığı bildirilir. Lakin Putin seçkidən sonra da onu vəzifəsində saxladı.

68 yaşlı Sergey Lavrov 14 ildir fasiləsiz olaraq, Rusiya kimi qüdrətli bir dövlətin xarici siyasət idarəsinə rəhbərlik edir. Onu, şübhəsiz, Putinə ən sədaqətli kadrlardan biri və bəlkə də birincisi saymaq olar. Yoxsa bu qədər müddətdə postunda qala bilməzdi. Amma təkcə Putinə sədaqət hesabınamı o, yüksək vəzifədə duruş gətirə bilib?

Erməni mənşəli Sergey Lavrovu Vladimir Putin üçün əvəzedilməz edən nədir ki, hətta özü vəzifədən getmək istəsə belə, Putin ondan vaz keçmir? Sergey Lavrovun xarici işlər naziri kimi bundan sonra da qalması Dağlıq Qarabağ danışıqlarına necə təsir göstərə bilər?

Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Sergey Lavrov Putinin müəyyənləşdirdiyi xarici siyasət kursunu həyata keçirir, hansısa müstəsna hüquqlara, müstəqil siyasət yürütmək imkanlarına malik deyil: "Əgər Lavrovun fəaliyyətində bizi qane etməyən nələrsə varsa, bu, daha çox Rusiyanın mövcud xarici siyasət kursu ilə bağlıdır. Əgər Lavrov yenidən xarici işlər naziri vəzifəsinə təyin edilibsə, bu, o deməkdir ki, onun fəaliyyəti Vladimir Putini qane edir. Sergey Lavrovu sevməyə bilərik, amma onun yaxşı diplomat olmadığını, işinin öhdəsindən gəlmədiyini, Rusiyanın maraqlarına xidmət etmədiyini söyləmək üçün əsasımız yoxdur. Əslində Rusiyanın xarici siyasət idarəsinin başında kimin dayandığı bizi narahat etməməlidir. Biz münasibətlərimizi Rusiya dövləti ilə qururuq, Lavrovla yox. Mən təsəvvür edə bilmirəm ki, Sergey Lavrov Rusiyanın xarici siyasət kursu ilə bağlı müstəqil qərarlar verir, Kremlin Cənubi Qafqazdakı maraqlarının əleyhinə addım atır. Bu, sadəcə mümkün deyil".

Politoloq Natiq Miri isə bildirdi ki, Lavrovu Putin üçün hələ də əvəzolunmaz edən faktorlardan biri onun dünya çapında tanınan diplomat olmasıdır: "Baxmyaraq ki, Lavrov rus deyil, erməni millətinə məxsusdur, diplomat kimi Rusiyada qəbul edilən siyasi fiqurdur. Putinin onu vəzifədə uzun müddət saxlamasında digər amillər də rol oynayır. Sergey Lavrov Rusiyadakı erməni lobbisinin ən əhəmiyyətli üzvlərindən biridir. Bu baxımdan məhz erməni lobbisinin təsiri və dəstəyi ilə Lavrov Rusiyanın xarici işlər naziri postuna sahiblənmək imkanı əldə edə bilib. Lavrovun vəzifədə qalması Cənubi Qafqazda Rusiyanın strateji müttəfiqi olan Ermənistanda Moskvanın təsir imkanlarını sabit saxlamağa əlavə imkanlar yaradır".

Politoloq hesab edir ki, Lavrovun Rusiyanın xarici işlər naziri olaraq qalması Dağlıq Qarabağ pobleminin həlli məsələsində manelərdən biridir: "Rusiya bu problemin həll olunmamış qalmasında maraqlıdır. Lavrov isə bu marağı çox yüksək səviyyədə həyata keçirir. Lavrovun nazir vəzifəsində qalması Dağlıq Qarabağ məsələsində bundan sonrakı mərhələdə Azərbaycan üçün çətinliklər yaradacaq. Çünki bu adam Ermənistanın maraqlarına uyğun olmayan qərarların verilməsinə dəfələrlə mane olub. Bundan sonra mane olmağa çalışacaq. Lavrov Dağlıq Qarabağ probleminin ədalətli həllinə imkan verməməyə çalışıb və bundan sonra da çalışacaq. Artıq Azərbaycan Rusiyadan Dağlıq Qarabağ probleminin ədalətli həllini gözləməməlidir. Azərbaycan özü bir proses yaratmaqla nəinki Lavrovu, bütövlükdə Rusiya hakimiyyətini vadar etməlidir ki, Qarabağ məsələsinin həllində maraqlı olsunlar. Azərbaycan onu da nəzərə almalıdır ki, Lavrov faktoru birinci dərəcəli məsələ deyil, Rusiyanın Azərbaycanı və Ermənistanı Dağlıq Qarabağ kartı ilə özündən asılı saxlamaq strategiyası var və Lavrov olmasa belə, bu strategiya mövcud olacaq. Lavrov sadəcə, bu strategiyanı problemin ermənilərin xeyrinə həll olunmasına xidmət etməsinə istəyir".

Politoloqun sözlərinə görə, əgər Rusiya və təbii ki, bu ölkənin prezidenti Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün konkret hərəkətə keçmək istəyərsə, bunun qarşısını nəinki Lavrov və Rusiyadakı ermənipərəst dairələr, heç böyük güclər də ala bilməzlər.

Xatırladaq ki, Sergey Lavrov mənşəcə ermənidir və uşaqlıq dövründə soyadı Kələntəryan olub. Atasının erməni olduğunu Lavrov özü də dəfələrlə dilə gətirib və erməniləri sevdiyini deyib. Qarabağ məsələsi ilə bağlı açıqlamalarında da Ermənistanın xeyrinə olan açıqlamaları dəfələrlə onun dilindən eşitmişik. Məsələn, bir müddət öncə o bəyan etmişdi ki, Dağlıq Qarabağ problemi istisnasız olaraq Azərbaycanın daxili məsələsi deyil. Sergey Lavrov sıradan siyasətçi, deputat, politoloq, jurnalist deyil, o, Rusiya kimi nəhəng bir dövlətin xarici siyasət idarəsinə başçılıq edir. XİN rəhbəri olaraq Lavrov Rusiyada Qarabağ məsələsi ilə birbaşa məşğul olan ən yüksək rütbəli dövlət yetkilisidir. Onu nahaq yerə, Rusiyadakı ermənilərin "boz kardinal"ı adlandırmırlar.

Təsadüfi deyil ki, prezidenti İlham Əliyev bir müddət əvvəl Soçidə Putinlə təkbətək görüşü zamanı öncəliklə Lavrova işarə vuraraq, Rusiyada Azərbaycanla münasibətləri korlamağa çalışan qüvvələrin olduğunu demişdi.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Paşinyanın siyasi ömrü sürətlə bitə bilər

## **Tanınmış politoloq:** "Ermənistanda xaos və anarxiya dövrü başlayır... Paşinyan "cini şüşədən çıxardıb", geri sala bilmir..."



**Nikol Paşinyanın hakimiyyətə gəlişindən cəmi iki həftə keçməyinə baxmayaraq, Ermənistanda onun əleyhinə etiraz aksiyaları keçirilməkdədir. Prosesləri şərh edən Qərb mediası və erməni nəşrləri yazır ki, Nikol Paşinyan hakimiyyətdə nə qədər çox qalırsa, xalqda onunla bağlı məyusluq da bir o qədər artır. Çünki həm ölkədəki sosial-iqtisadi, həm də ictimai-siyasi vəziyyətin yaxşılaşdırılması ilə bağlı xalq ona böyük ümidlər bəsləyirdi və xalq bu ümidlərin çox qısa zamanda həyata keçəcəyini düşünürdü.**

Vaxt keçdikcə insanlar görürlər ki, ümidləri həyata keçməmiş qalır. Əvvəlki rejimdən qalan problemləri bir neçə günə həll eləmək isə bəllidir ki, mümkün deyil. Qarabağ problemi həll edilmədikcə və Ermənistan Azərbaycanla, Türkiyə ilə iqtisadi layihələrdə iştirak etmədikcə, Ermənistanın üzləşdiyi dalandan çıxması qeyri-mümkündür. Paşinyan isə nə Qarabağ məsələsinin həlli istiqamətində addımlar atmır, nə də ölkədəki problemlərin yoluna qoyulması hökumətin ciddi hərəkətliliyi görünmür. Odur ki, erməni xalqı yenidən küçələrə çıxmağa başlayıb. Görünən həmçinin, odur ki, yeni hökumətin fəaliyyətsizliyi ilə paralel xalqın narazılığı artır.

Beləliklə, N.Paşinyan ona verilmiş ictimai etimad kapitalını şaha sürətlə xərcləyir. Artıq Nikol Paşinyanın hakimiyyət ömrünün qısa olacağı söhbətləri gündəmə gəlməkdədir.

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Nikol Paşinyanın siyasi ömrünün uzun sürməyəcəyi ehtimalı kifayət qədər böyükdür: "Nikol Paşinyan yürüşləri vasitəsilə devirdi. İndi eyni üsuldan ona qarşı istifadə edirlər. Kim harda və nəyə istəyir mitinq və yürüş keçirir. Bu illərdə Ermənistanda o qədər ədalətsizlik olub ki, kütlələr fərqli tələblərlə küçələrə tökülüşüblər. Biri gecikən maaşını tələb edir, bir başqası dostlarının həbsdən azad olunmasını istəyir, o birilər hansısa məhkəmə qərarından şikayətçidirlər. Paşinyan özü küçə yürüşü vasitəsilə hakimiyyətə gəldiyindən mitinq və yürüşləri dağıda bilmir, polisə "vur" və ya "tut" əmri verə bilmir. Bu olmadıqca da küçə siyasətə hakim olacaq. Ancaq Paşinyan bir gün polisə "vur" və "tut" əmri vermək məcburiyyətində qalacaq. Ancaq bu əmr də ona yaxşı heç nə vəd etmir".

Onu da xatırladaq ki, mitinqlər zamanı Paşinyan siyasi məhbusların dərhal azad olunacağını vəd vermişdi. Lakin hakimiyyətə gəldikdən sonra hələ də bu vədinə əməl etməyib. Bəs onun bu vədini yerinə yetirməməsinin hansı səbəbləri ola bilər?

Elxan Şahinoğlu bildirdi ki, Paşinyan yaxın zamanlarda əfv fərmanı verə bilər: "Ancaq Paşinyan yaxşı bilir ki, bütün məhbusları, əsasən də hərbi qruplaşmanın üzvləri olan məhbusları əfv etsə, onun başağrısı daha da artacaq. Vədinə əməl etməməsi bu perspektivi hiss etdiyindən irəli gəlir. Bəzi qruplar ötən il polis bölməsinə basqın edən silahlı qruplaşma üzvlərinin sərbəst buraxılmasını tələb edirlər. Doğrudur, həmin basqınçılar Serj Sərkisyanın hakimiyyətinə etiraz edirdilər. Ancaq həmin basqın zamanı 3 polis qətlə yetirilmişdi. Paşinyan onları necə sərbəst buraxa bilər? Sərbəst buraxsa bir gün həmin silahlılar ona qarşı da hücum aksiyası həyata keçir bilərlər. Bir sözlə, Paşinyan "cini şüşədən çıxardıb", indi onu geri sala bilmir. Ermənistanda xaos və anarxiya dövrü başlayır. Bizim 1990-ci illərdə yaşadıqlarımızı Ermənistan yaşamağa başlayacaq. Hətta bu anarxiya və xaos Ermənistanı vətəndaş müharibəsinə qədər apara bilər".

O ki qaldı yeni Paşinyanın yeni islahatçı komanda formalaşdıra biləcəyi və Rusiyanın buna imkan verib-verməyəcəyinə, politoloq qeyd etdi ki, Paşinyan Qərbdə oxuyan gəncləri hökumətə təyin etməklə islahatçı komanda formalaşdırmaq istəyir: "Ancaq istək olsa da, bunu həyata keçirmək elə də asan olmayacaq. Çünki Ermənistanda Qərbtəhsilli və Qərbmeylli şəxslərin yüksək vəzifələrə təyinatından Rusiya narazı qalacaq. Bu prosesin qarşısını Moskva almağa çalışacaq".

E.Şahinoğlu vurğuladı ki, Paşinyanı xarici siyasətdə də çətin günlər gözləyir. Serj Sərkisyan və onun tərəfdarları pusqudadırlar, Paşinyanın büdrəməsini gözləyirlər.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018



# Kim ki, üç uşaq doğmadı....

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Cümləni kontekstdən çıxaranda pis səslənir. Qəddarca görünür bəlkə də. Amma dərindən düşünəndə... Deputat, Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin sədri Aqiyə Naxçıvanlı ailə planlaması barədə bir qədər “qayınanasayağı”, amma bir o qədər də realist bir açıqlama verib. Hərəmiz bir qılınc alıb, üstünə düşsək də... Qadın haqlıdır, bəylər və xanımlar, kənara çəkilin...**

Xatırlayaq, nə deyib xanım deputat? Sitata diqqət: “Qadınlar komitəyə müraciət edirlər, dinləyəndə görürsən ki, bunun savadı yoxdur. Sual verirsən ki, necə ailə qurmusan? Deyir, valideynlərin razılığı ilə olub. Deyirəm, bəs ailə qurduğun şəxs qonşun olubsa, əvvəlcədən onun necə birisi olduğunu bilmirdin? Ailə qurmaq, sonradan dağıtmaq o qədər sadələşib ki... Deyirəm ki, ilk gündən döyülmüsənsə, söyülmüsənsə, niyə üç uşaq dünyaya gətirmisən? Deyir ki, uşaqları siz götürün saxlayın. Uşaqlara dövlətin baxmasını tələb edir. Dövlət sifariş vermişdi ki, üç uşaq dünyaya gətirəsən?”

İndi gəlin əyri oturaq, düz danışaq. Nəyi səhv deyib ki, deputat? Hamımız gün-güzəranımızı, alış-verişimizi aldığımız məvacibə uyğun planlaşdırmırıqmı? Ya da əşya alanda onu evimizin ölçüsünə görə seçmirikmi? Kobud müqayisə olsa da, uşaqlarımızın sayını, ailə tərkibimizi də maddi durumumuza görə planlaşdırırıq. Hazırda Azərbaycanda 3 uşaqlı ailə çoxuşaqlı ailə deməkdir az qala. Cütlüklər ikidən artıq uşağa nadir hallarda risk edir. Çünki hər kəs fərqindədir: hər yeni uşaq özü ilə bərabər bir ton məsrəf deməkdir. Birdəfəlik yardımın belə gülməli rəqəmlərlə müəyyənləşdiyini və onu əldə etmək üçün dünyanın əziyyətini çəkməli olduğumuzu xatırlayanda... sən kimə və nəyə güvənib 2-dən artıq uşaq sahibi olmaq istəyirsən? Axı hər bir ailə şüurlu şəkildə bu uşağı dövlətin yardımı olmadan böyüdəcəyini bilir. Qadın bətninə uşaq düşən gündən etibarən onun məsrəflərini hesablayır.

Xəstəxanadan universitetəcən... və təbii ki, ondan sonrakı mərhələlərdə də övlad sahibi olmaq daim oyaq, ayıq, hazır, işlək vəziyyətdə olmağı tələb edir. Sənin işdən çıxma, istirahət etmək lüksün yoxdur. Heç kim sənin əvəzinə uşağını saxlamayacaq. Sənin uşağını hazırlığa qoymamaq şansın yoxdur. Dövlət sənin əvəzinə uşağını oxutmayacaq, ali təhsil ocaqlarının qapısını üzünə taybatay açmayacaq. Sən bu fırtınalı valideynlik dənizindən bacardığın qədər sağ və mübariz çıxmalısan. Valideynlik imtahana bənzəyir. Hər dəfə, yenidən və bir daha... Ondan üzüağ çıxmaq isə sənin borcundur. Gedib heç kimin qapısına “mən uşağımı bura qoyuram, siz baxın” deyib, blef edə bilməzsən, bilməməlisən. Ya gedib onu uşaq evinə qoydun, ya da deputat qapısına, fərqi nədir?

Ona görə də valideyn olmağa qərar vermədən öncə yüz ölçüb bir biçmək lazım gəlir. Uşaq təkcə “ay Allah, bal kimi şirindir” deyib, öpməklə yekunlaşsaydı, nə vardı ki? Doğru, bu ölkədə uşaq böyütmək çətindir. Buna görə etiraz etmək olar. Səhiyyəsinə şikayət etmək olar. Xəstəxanalarda doğuş məsrəflərini azaltsın deyə. Təhsil Nazirliyinə giley etmək olar. Uşaqlara gerçəkdən pulsuz təhsil verə bilək deyə. Ya da ümumən təhsil versinlər deyə. Sosial Müdafiə Fondları uşaq pulları məsələsinə yenidən baxsın, hər ailə bu yardımdan yararlansın. Və sair və ilaxır. Bax, bunu tələb etmək olar və olunmalıdır. Yoxsa ki, uşağını gəl deputatın qapısına qoy... Bu, artıq iş deyil və istər-istəməz “dövlət sənə 3 uşaq sifariş vermişdi?” sualını eşitmək zorunda qalacaqsan.

Bəli, Rusiya prezidenti 3 uşaqla bağlı təklif qoyub, Türkiyə prezidenti R.T.Ərdoğan 3 uşaqla bağlı məsləhət verib. Amma bizim ölkədə demoqrafik problemlə bağlı kiminsə belə təklif səsləndirdiyini mən eşitməmişəm. Uzaqbaşı deyilib ki, qadınlar indi bir qız-bir oğlan övladı istəyinə görə selektiv aborta gedirlər və gələcəkdə oğlanlar evlənməyə qız tapa bilməyəcəklər... Amma heç vaxt “siz Allah, hərəyə 3 uşaq” kampaniyası görülməyib.

Odur ki, ailədəki uşaqların sayını müəyyənləşdirməkdə azadsız. Ən azı bu məsələdə. Hökumət sizə müstəqillik verir. Dəyərinizi bilin...

---

**Azərbaycan vətəndaşı Davud Bağırovun adı keçən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Ali Məhkəməsinin qərarı ötən il Azərbaycan Ali Məhkəməsinə təqdim olunub. 2017-ci ilin oktyabrında Azərbaycan Ali Məhkəməsi Dubay Ali Məhkəməsinin qərarını tanıyıb. Həmin qərara görə, Dubayda anasından qaçırılaraq Azərbaycana gətirilən Ceyla Bağırova anası Merim Beishekeyeva qaytarılmalıdır.**

# Dubayda oğurlanan azərbaycanlı uşağın taleyi ilə bağlı yeni təfərrüat

## Körpənin anasına qaytarılması indi də Konstitusiya Məhkəməsindən asılıdır




ABŞ vətəndaşı olan azyaşlı Ceyla Bağırova 2015-ci ildə Dubaydan Türkiyəyə, oradan isə Azərbaycana qaçırılıb. Bu qalmaqallı cinayət əməli ilə bağlı Dubay Əmirliyinin prokurorluğunda Azərbaycan vətəndaşı Davud Bağırovun əsas fiqurant olaraq adı keçən uşaq oğurluğu ilə bağlı cinayət işi istintaq olunub. Uşaq oğurluğu faktına görə başlanmış cinayət işində D.Bağırovdan savayı bir qadın da olub. Qazaxıstan vətəndaşı Zarina Jeksenbayeva da işə təqsirləndirilən şəxs qismində cəlb olunub.

Yada salaq ki, Dubayda bank sektorunda çalışan Qırğızıstan vətəndaşı Merim Beishekeyeva Azərbaycan vətəndaşı Davud Bağırovu onun azyaşlı övladını oğurlamaqda ittiham edir. Merim Beishekeyeva övladı oğurlanandan sonra Dubayın hüquq-mühafizə orqanlarına müraciət edib. Bundan sonra uşaq oğurluğu faktına görə Dubay Prokurorluğunda cinayət işi başlanıb.

Merim Beishekeyeva öyrənib ki, azyaşlı övladı Dubaydan Türkiyəyə, oradan isə Azərbaycana gətirilib. Buna görə də o, 2017-ci ilin fevralında Bakıda olub, övladının oğurlanması ilə bağlı ölkə başçısına, baş prokurora, Milli Məclisin sədrinə, ombudsmana AQUP DK-nın sədri Hicran Hüseynovaya müraciətlər ünvanlayıb. Merim Beishekiyevanın nümayəndəsi hüquqşünas Abdulla Əfəndizadədir. O, uşaq oğurluğu ilə bağlı mətbuatda dəfələrlə çıxışlar edib və iş üzrə Azərbaycan məhkəmələrində bir neçə iddia qaldırıb.

5 oktyabr 2017-ci ildə Azərbaycan Ali Məhkəməsində hakim Əsəd Mirzəliyevin sədrliyi ilə Dubay Əmirliyinin Ali Məhkəməsinin iş üzrə çıxardığı qərar tanınıb. Həmin qərara əsasən Merim Beishekeyevanın Davud Bağırova qarşı iddiası təmin olunub. Onların nikahı pozulub, azyaşlı Ceylanın anasının himayəsində qalması, Davud Bağırovun uşağı Merim Beishekeyevaya qaytarması, aliment ödənişi və digər tələblər təmin olunub. Dubay Ali Məhkəməsinin qərarının tanınmasından sonra da bu işə nöqtə qoyulmayıb. M.Beishekeyevanın nümayəndəsi Abdulla Əfəndizadə deyir ki, Davud Bağırov Merim Beishekeyeva ona qarşı Dubay Məhkəməsinə şikayət təqdim edəndən sonra orada prosesin xeyrinə getmədiyini görüb və fasilə elan edilməsini istəyib. Cavabdeh bildirib ki, fasilənin verilməsini sübutlar təqdim olunması üçün istəyir. Həmin dövrdə D.Bağırov Azərbaycana gəlib və oxşar iddia ilə Səbayel Rayon Məhkəməsinə şikayət verib. Səbayel Rayon Məhkəməsində hakim Nurəddin Bağırov şikayətə 1 günün içində baxaraq təmin edib. A.Əfəndizadə deyir ki, D.Bağırov Səbayel Məhkəməsində işə baxılarkən ona qarşı Dubay Məhkəməsində oxşar iddianın olduğunu deməyib. Abdulla Əfəndizadə deyir ki, Səbayel məhkəməsində işə böyük qanunsuzluqlarla baxılıb. M.Beishekeyevaya iddiaya baxılması haqda məlumat verilməyib, qəyyumluq və himayəçilik orqanlarının şikayətə baxılarkən iştirakları təmin olunmayıb. M.Beishekeyeva həmin qanunsuz və əsassız qətnaməni ləğvi ilə bağlı Bakı Apelyasiya Məhkəməsinə (BAM) şikayət təqdim edib.

Həmin ərəfədə Dubay Ali Məhkəməsinin qərarı Azərbaycan Ali Məhkəməsində tanınıb. Ali Məhkəmənin qərarı BAM hakimi Raqib Qurbanova təqdim olunub.

A.Əfəndizadə deyir ki, qarşı tərəf hər fürsətdən yararlanmaqla Dubay Ali Məhkəməsinin iş üzrə çıxardığı qərarın icrasını ləngitməyə çalışır: “Azərbaycanda Səbayel Rayon Məhkəməsinin çıxardığı qanunsuz və əsassız qətnamənin ləğv olunması tarixini maksimum uzatmaq, bu müddətdə Ali Məhkəmənin çıxardığı tanınma qərarından Konstitusiya Məhkəməsinə şikayət verməyə vaxt qazanmaq üçün hərəkətə keçmişdilər. İndi də Azərbaycan Ali Məhkəməsinin qərarlarını nəyin bahasına olursa-olsun ləğv etmək üçün çalışırlar. Davud Bağırovun vəkili Azər Quliyev deyir ki, Ali Məhkəmənin 5 oktyabr 2017-ci il tarixli qərardadına qarşı Konstitusiya Məhkəməsinə şikayət veriblər. Hər dəfə də hakimləri və icra məmurlarını inandırmağa çalışırlar ki, guya Konstitusiya Məhkəməsi onların xeyrinə qərar verəcək. Əslində isə Azər Quliyev Konstitusiya Məhkəməsinin hakimləri adından danışır. Eyni sözləri Davud Bağırovun bacısı Cəmilə Bağırova da deyir. Bu səbəbdən də Səbayel Rayon İcra və Probasiya Şöbəsinin icra məmurları gözləmə mövqeyində dayanıb Azərbaycan Ali Məhkəməsinin qərarının icrasını həyata keçirməyə tələsmirlər. Bundan başqa Davud Bağırovun barəsindəki axtarış işi ilə bağlı da icra məmurları passiv mövqe tuturlar. Səbayel rayon Polis İdarəsinin qeydiyyat şöbəsi Davud Bağırovun barəsindəki axtarış işini 2 ayləngitmədən sonra nəhayət ki, sistemə yerləşdirdi. Buna baxmayaraq Davud Bağırov bu günə qədər Ali Məhkəmənin qərarını qərəzli şəkildə icra etməkdən yayınır və həbs olunmur.

Mayın 17-də Bakı Apelyasiya Məhkəməsi İnzibati İqtisad Kollegiyasında hakim Həmid Həmidovun sədrliyi ilə Merim Beishekeyevanın Səbayel Rayon Qeydiyyat Şöbəsinə qarşı “azyaşlı Ceylaya verilmiş doğum şəhadətnaməsinin etibarsız sayılması və ləğv olunması” iddiası üzrə proses keçirilib. Prosesdə Azər Quliyev hüquqşünas Abdulla Əfəndizadənin prosesdən kənarlaşdırılması ilə bağlı vəsatətlə çıxış edib. O, vəsatətində nümayəndəlik institunun ləğvi ilə bağlı məlum qərara əsaslanıb. Abdulla Əfəndizadə isə hakimlərin diqqətinə çatdırıb ki, vəsatət prezidentin məlum fərmanına ziddir. O, qarşı tərəfi prezident fərmanından bixəbər olmaqda suçlayıb. Məhkəmə vəsatəti rədd edib.

Azər Quliyev bu dəfə Ali Məhkəmənin qərarını almadıqlarını bildirib, həmin qərarla tanış olmaq üçün vaxt istəyib. Abdulla Əfəndizadə isə buna etiraz edib, qarşı tərəfi vaxt uzatmaqda ittiham edib: “Qarşı tərəf vaxt uzadır. Konstitusiya Məhkəməsinin hakimlərinin adından danışıb Ali Məhkəmənin tanınama qərarını şübhə altına almağa çalışırlar. Elə danışırlar ki, artıq Konstitusiya Məhkəməsinin qərarını alıblar, sanki ciblərindədir. Çox təəssüflər olsun ki, Bakı Apelyasiya Məhkəməsinin hakimləri və rəhbərliyi də qarşı tərəfin vaxt uzatmasına göz yumur”.

A.Əfəndizadə deyir ki, hakim Həmid Həmidov növbəti prosesi 31 may tarixinə təyin edib. Nümayəndə bunu qarşı tərəfin vaxt uzatmaq məqsədi ilə üst-üstə düşdüyünü bildirib. O, ümid edir ki, Konstitusiya Məhkəməsi qarşı tərəfin nazı ilə oynamayacaq. O, ölkə prezidentinə, 1-ci vitse prezidentə müraciətlər ünvanlayaraq qanunsuzluqların qarşısının alınmasını, Dubayda oğurlanan azyaşlı uşağın nəhayət ki, anasına qaytarılmasını istəyib.

❑ E.MƏMMƏDƏLİYEV,
“Yeni Müsavat”



# Qarabağ düyünü Ermənistanı çıxılmaza salıb - inqilab da kömək etməyəcək

## Yeni baş nazirin ölkədəki köklü problemlərin səbəblərini qoyub nəticələrlə mübarizə aparmağa başlaması vəziyyəti dəyişməyəcək; nüfuzlu beynəlxalq qurumlar və ekspertlərdən Ermənistanla bağlı bəd proqnozlar...

**Ermənistanın yeni baş naziri Nikol Paşinyan öz xalqına verdiyi böyük vədləri necə reallaşdırmaq haqda baş sındırır. Onun qarşısında indi həll eləməli olduğu çox mürəkkəb bir tənlik var: necə eləməli ki, həm Rusiyanın, həm də Qərbin, xüsusən də ABŞ-ın dəstəyini alıb erməni əhalinin durumunu yaxşılaşdırmalı, korrupsiyanın kökünü kəsməli, şəffaf siyasi idarəçilik bərqərar eləməli?**

Aydındır ki, Vaşinqtonun sanballı köməyi olmadan bu işləri görmək mümkünsüzdür. Bu isə sövq-təbii Amerika amilinin Ermənistanda möhkəmlənməsi deməkdir ki, buna da Rusiya razı olmayacaq. Moskva rəsmiləri indinin özündə belə, Ermənistanda "rəngsiz inqilab"ın arxasında ABŞ-ın durduğunu əminliklə bildirirlər.

*****

Bu arada "Forbes" jurnalında dərc edilmiş təhlili məqalədə Ermənistanın mümkün inkişafı ilə bağlı proqnozlar yer alıb. Qeyd edilir ki, Ermənistan iqtisadiyyatının inkişafı yolunda böyük çətinliklər var və inkişaf üçün, ilk növbədə onun siyasi-iqtisadi sistemindəki mənfi hallar aradan qaldırılmalıdır.

Nəşrdə 2016-cı ildə Ermənistanın qlobal iqtisadi çətinlik reytinqində 137-ci yerdə qərarlaşdığı diqqətə çatdırılır. "Forbes" yazır ki, Ermənistanda ciddi islahatlardan sonra əsasən sadə xidmət sahələrinin inkişafı müşahidə oluna bilər. Lakin bu inkişaf da uzun çəkə bilməz. Ermənistan kiçik xidmət sahələrindən gəlir əldə edə bilər, ancaq indiki iqtisadi vəziyyətdə Ermənistanın bunun öhdəsindən gələ biləcəyi şübhə doğurur. Bundan başqa, ölkədə ciddi logistik və nəqliyyat problemləri var.

Müəllif Ermənistan iqtisadiyyatının xilasının turizm sektorunda olduğunu bildirsə də, bunun da inkişafı üçün böyük çətinliklərin mövcudluğunu qeyd edir. O vurğulayır ki, bu məsələdə də Ermənistan çıxılmaz vəziyyətdədir. Çünki yeni otellər və nəqliyyat infrastrukturu üçün Ermənistana pul lazımdır.

*****

Təhlili məqalədən də göründüyü kimi, işğalçı ölkədə dərin iqtisadi islahatlar aparmaq üçün hazırda yetərli iqtisadi, siyasi resurs yoxdur. Şübhəsiz ki, bunu Paşinyan da bilməmiş deyil. Amerikadan yox, lap Marsdan da təcrübəli iqtisadçı-məsləhətçilər gətirməyin xeyri olmayacaq, ta ki, Ermənistan blokada vəziyyətindən çıxmayınca, iki əsas qonşusu - Türkiyə və Azərbaycanla normal münasibətlər qurmayınca, regionda kommunikasiyalar tam açılmayınca.

Beləcə, 30 illik Qarabağ konflikti Ermənistanı əməlli-başlı çıxılmaza salıb. Təəssüflər olsun ki, işğalçı ölkənin yeni populist başçısı da səbəbi qoyub nəticələrlə mübarizə aparır. Ancaq bu uzun çəkə bilməz, çünki onu baş nazir eləmiş kütlə qısa zamanda ciddi nəticə tələb edəcək.

"Formalaşma prosesi ərzində Paşinyanın dövlət qurması xeyli vaxt alacaq. Buna da erməni əhalisinin dözümünün olub-olmayacağını söyləmək çətindir". Bu sözləri Axar.az-a politoloq Qabil Hüseynli son günlər Ermənistanda aksiyaların kəsilmədiyi və hətta Paşinyana qarşı da yönəldiyini şərh edərkən deyib.

O bildirib ki, Paşinyan demokratik hərəkat dalğasında hakimiyyətə gəlib və ətrafına yığdığı adamlara verdiyi vədlərin əsasını demokratik hakimiyyətin qurulması və avtoritar rejimin bütövlükdə dəyişdirilərək, demokratik rejimə çevrilməsi təşkil edir: "Onun vədlərindən biri rüşvət və korrupsiya nəticəsində oğurlanmış pulların ölkə xəzinəsinə qaytarılması və ölkədə tam ədalətli və sosial mahiyyətli bir dövlət aparatının qurulmasıdır. Paşinyan obraz kimi də Qərb dövlətlərinin siyasi sistemini və siyasi dövlət quruluşunu əsas götürürdü".

Politoloqun sözlərinə görə, Paşinyan hökumət və korrupsiyaya qarşı mübarizə vədində, bəlkə də, müəyyən uğurlar qazana bilər: "Yeni özü rüşvətə meyillənməyəcəksə və ətrafını seçərkən dürüst adamları seçib yerləşdirə biləcəksə, korrupsiyanın kökünü müəyyən qədər kəsə bilər. Amma ölkədə demokratizmin bərqərar edilməsi istiqamətində işlər aparılması o qədər də asan deyil. Əvvəla, cəmiyyətin intellektual, siyasi və ictimai şüur səviyyəsi buna imkan vermir. Cəmiyyətə tətbiq edilən demokratik təsisatlar və qurumların əhali tərəfindən qəbul edilməsi və qavranılması üçün ictimai siyasi şüur həmin qurumların işləməsinə şərait yaratmalıdır. Bir növ əhalinin demokratik səviyyəsi yüksəlməlidir ki, ölkədə demokratik cəmiyyəti qurmaq mümkün olsun. Bu asan baş verən proses deyil. Bunun üçün ölkədə təhsilin, mədəniyyətin və digər təsisatların sürətli inkişafı tələb olunur".



Analitik hesab edir ki, Paşinyanın dediklərinə əməl edə bilməsi üçün cəmiyyətin maddi rifah halının yüksəldilməsi əsas vəzifələrdən biridir: "Yəni o, işsizlərə iş, işləyənlərə isə yüksək maaş vəd edib. Bunun üçün o, vəsaiti haradan tapacaq, iş yerlərini necə yaradacaq, bilinmir. Onun yeganə ümid yeri xaricdəki diaspordur. Diasporun büdcənin, hərbi xərclərin ehtiyaclarını ödəmək imkanında olması ilə bağlı suala birmənalı cavab vermək mümkün deyil. Çünki diaspordan həm insanların, həm ordunun, həm də yeni iş yerlərinin açılması üçün lazım olan pulun gəlməsi inandırıcı görünmür. Burada Paşinyan ciddi problemlərlə üzləşə bilər. Əvvəla, Rusiya hər zaman dövlət xətti ilə Azərbaycana qarşı Ermənistanda yaradılan cəbbxanaya lazım olan silah-sursatı pulsuz göndərirdi. Bundan sonra bu olmayacaq. Üstəlik diaspor da pulu cəmiyyətdə bir dəyişiklik görməmiş havaya səpməyəcək".

Politoloq bunu da qeyd edib ki, əsas pul qaynağı Rusiya olduğundan, Rusiyanın dotasiyalarının kəsilməsi ilə Ermənistanda maddi rifah halı sürətlə aşağı düşəcək: "Yeni iş yerlərinin açılması üçün də investisiyalar lazımdır. Bu investisiyaları ya erməni lobbisi göndərməlidir, ya da ölkədə elə cəlbedici mühit qurulmalıdır ki, buraya xarici investorlar yatırım etsin. Bunun da imkanı yoxdur. Çünki ölkə nə dənizə yaxındır, nə də ölkədən dəmiryolları keçir. Ölkə blokada şəraitində olduğundan xarici investisiyanın ölkəyə cəlb edilməsi çox çətindir. Yəni problemlər kifayət qədər çoxdur. Paşinyan və onun komandasının bu işləri qaydaya salması isə sual altındadır. Digər tərəfdən, hələ Paşinyanın öz komandası yoxdur, hələ formalaşır".

*****

Bir çox digər nüfuzlu beynəlxalq qurumlar da hakimiyyət dəyişikliyinə rəğmən, işğalçı ölkə ilə bağlı nikbin təxminlərə malik deyil. O sırada "Fitch" beynəlxalq reytinq agentliyi Ermənistanda hakimiyyət dəyişikliyindən sonra ölkənin gələcək siyasi-iqtisadi vəziyyətinə dair açıqla hesabatda qeyd olunur ki, Ermənistanda hələ də daxili siyasi qeyri-müəyyənlik hökm sürür (Azvision.az). Çünki Nikol Paşinyanın yeni administrasiyası ciddi problemlərlə üzləşir.

"Respublikaçılar Partiyası parlamentdə ən böyük fraksiyaya malikdir və bu səbəbdən Paşinyanın xalqın dəstəyini qoruyub saxlamağa paralel olaraq, iqtisadi maraqları olan qruplarla işləməyin vacibliyi ilə parlamentdə mütləq çoxluq qazamağın vəhdətinə necə nail olacağı, həmçinin korrupsiya ilə mübarizə aparmaqla yanaşı, sosial ədalət prinsiplərinə necə sadiq qalacağı aydın deyil", - deyə hesabatda bildirilir.

İqtisadiyyata gəlincə, "Fitch" Ermənistanın bu sahədə, demək olar ki, xarici yardımdan asılı olduğunu bildirib. Ümid edilir ki, ölkədə aparılacaq islahatlar və xarici siyasi kursun davamlılığı beynəlxalq maliyyə təşkilatları və tərəfdaş ölkələrin Ermənistana texniki və maliyyə dəstəyi göstərməsinə imkan verəcək.

Agentliyin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proqnozu heç də nikbin deyil. Təşkilat münaqişənin tənzimlənməsi istiqamətində sürətli irəliləyiş gözləmir və hesab edir ki, Qarabağ münaqişəsi zonasında gərginliyin artma riski olduqca böyükdür. Bu isə son iki ildə tərəflərin bir neçə dəfə silahlı toqquşmaya girdikləri ilə əsaslandırılır.

Qarabağ düyünü, Ermənistan üzərində "Domokl qılıncı" kimi asılmış müharibə riski isə Paşinyanın kosmetik islahatlarını da dərhal sıfırlamaq gücündədir.

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018

**İctimai vəkil Samir Zeynalov növbəti dəfə “Koroğlu” MMC-də baş verən cinayətlər silsiləsi haqda dosyenin təfərrüatlarını redaksiyamızla bölüşüb. İctimai vəkil hüquq-mühafizə orqanları rəhbərlərinə və ombudsman Elmira Süleymanovaya müraciət etməklə MMC-də baş verən qanunsuzluqların araşdırılmasını istəyib: “Bu gün ölkəmizdə kütləvi hüquqa zidd əməlləri ilə mütəşəkkil cinayətkar dəstə fəaliyyətdədir. Əsasən Azərbaycan gəncliyini məhv etməyə yönəlik bu antimilli, antisosial fəaliyyətin mənbəyində ”Koroğlu" MMC adı altında fəaliyyət göstərən bir qrup kommersant dayanır. Ölkə gündəmini təəssüf və hiddətlə zəbt etmiş “Koroğlu” MMC rəhbərliyinin əməlləri haqda qanuna müvafiq ciddi tədbirlər görülməsinin vaxtı çoxdan çatıb. Çünki çoxdandır ki, şirkət rəhbərliyi tərəfindən qanunsuz hesablanmış borclara məhkum edilmiş şirkətin sabiq işçilərinə qarşı qeyri-qanuni əməllər; döymə, şantaj etmə, əxlaqa ziddi videolar çəkməklə rüsvay etmə, iplə boğma, özünü öldürmə həddinə çatdırma, qanunsuz azadlıqdan məhrum etmə, girov saxlama, soyuq alətlər vasitəsilə işgəncələr vermə və hədə-qorxu yolu ilə tələb etmə kimi cinayət tərkibli tüküpərdən olaylar bu günə qədər cəzasız qalmaqdadır. Bu cəzasızlığın nəticəsidir ki, hələ də şirkətin ağlasığmaz ittihamlarına düçar olmuş gənclər var və onlar hazırda köməyə möhtacdırlar".**

# Qorxu filmi kimi ”Koroğlu” MMC: intihar, həbs, işgəncə...

## İctimai vəkil Samir Zeynalov dövlət qurumlarına müraciət etdi: “MMC rəhbərliyi haqqında qanuna müvafiq tədbirlər görülsün”




İctimai vəkil intihar faktları haqda yazır: “2 övladı atasız qalan, şirkətin sabiq işçisi Xəyyam Vüsal oğlu Nağıyev ona qarşı zorakılıqla irəli sürülən 10 min manat qondarma borc ittihamının nəticəsində 05.12.2011-ci ildə özünü asaraq dünyasını dəyişib. Faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanılmayıb. Nəticədə 2 il sonra növbəti intihar faktı gerçəkləşib. İsmayıllı rayonun Aşağıbaş kənd sakini, 1990-cı il təvəllüdlü, şirkətin satış nümayəndəsi olmuş Tofiq Adıgözəlov yaşadığı evin həyətində canına qıyıb. T.Adıgözəlov intihar etməzdən öncə facebook səhifəsində son statusunda həyatından narazı olduğu gizlətməyib: ”Bu həyat çox haqsızdır; çünki pulu, varı, dövləti olana üstünlük verirlər".

Borc köləliyi, işgəncə və əsir saxlama faktları:

Həmin şirkətin işçilərindən biri olan Namiq Məmmədovun qeydi: “2009-cu ildə dekabrın 1-dən firma tərəfindən Şirvan və ona yaxın bölgələrə göndərilmişəm. Mənə verilən tapşırığı vaxtında yerinə yetirirdim. Lakin 2010-cu il aprel-avqust aylarında Kür-Araz çaylarının daşması ilə əlaqədar həmin ərazilərə verilən malların pulunu ala bilmədim. Təhvil verdiyim mallar daşqın altında qalmışdı. 2010-cu il avqustun 23-ü bölgə müdiri Ələddin Hüseynov avqustun 24-ü saat 10-da MMC-in direktoru Tahir Əliyevin yanında olmağımı söylədi. Dediyi vaxtda firmada oldum.

Qapıda məni şirkətin təftişinin rəisi Ayaz və onun müavini Emin Babaşov gözləyirdi. Emin mənə heç bir söz demədən sillə vurdu. Sonra Ayazla Emin məni sürüyərək təftişin otağında qəddarcasına döydülər. Emin qənd qabını başıma elə zərbə ilə vurdu ki, huşumu itirib yerə yıxıldım. Onlar məni vurmalarına davam edirlər. Mənim paltarlarımı çıxardaraq(alt paltarlarımı da) stolun üstünə lüt uzandıraraq videoya çəkiblər. Mən ayıldıqdan sonra şirkətin direktoru Tahir Əliyevin mənə baxaraq istehza ilə “mən naxçıvanlıyam, Prezident Administrasiyası da, prokurorluq da mənim əlimdədir. Mən istədiyim adamın başına oyun açaram” deyib.

Şirkətin sabiq əməkdaşı Asif Rəhimovun isə Əhmədli qəsəbəsindəki evi əlindən alınıb.

“Koroğlu” MMC-nin rəhbərliyi mənzili onun adına yazılan 30 min manat borcun əvəzində götürüb. A.Rəhimov bildirib ki, şirkətin Emin Babaşov başda olmaqla, bir neçə əməkdaşı onu 2011-ci ildə Saatlı rayonu ərazisində oğurlayıb. Yalnız həyat yoldaşının polisə davamlı zəngləri əsasında Tahir Əliyevin adamları onu azad ediblər: “Məni ikinci dəfə oğurlayanda bildirdilər ki, MMC-yə 10 min manat borcum qalıb. Suallarımın qarşılığında isə məni ancaq döydülər”.

Rəhimovlar ailəsi bununla bağlı məhkəməyə müraciət edəndə, onun adına daha 10 min manat borc yazıblar. Bundan əlavə, A.Rəhimovu oğurlayaraq döyüblər. Bu barədə isə onun xanımı Səkinə Rəhimova məlumat verir.

Vaxtilə Tovuz-Qazax-Ağstafa bölgəsi üzrə supervayzer vəzifəsində çalışan Xanlar Mahmudov qeyd edib ki, onun ayağına xarab məhsullar yazılıb: “Mən heç vaxt əliəyrilik etməmişəm. Xarab məhsullar ayağıma yazılıb. Xarab məhsullara görə mənə qarşı 6 min 800 manat borc ittihamı olub. Hətta ”Koroğlu" MMC-dən mənə dedilər ki, 6 min manat ver, bu işi bağlayaq. Mən xarab şokoladlara görə onlara 6 min 800 manat pul vermək niyyətində deyiləm. Xarab məhsullara görə işçilərin 80 faizinin başına belə oyun gətirilib.

Şirkətin sabiq əməkdaşı Elgün Teymurov da yuxarıda qeyd edilən səbəblərlə döyülüb. Bundan başqa, hətta onun atasını bir müddət girov kimi şirkətdə saxlayıblar.

Şirkətin sabiq əməkdaşı Mirrəhim Qənizadə qeyd edir ki, avtomobilini şirkətin “cəza qrupunun” üzvlərindən birinin adına keçirdikdən sonra onu sərbəst buraxıblar.

O digər əməkdaşların bütün kollektivin gözü qarşısında döyülməsinin və təhqir edilməsinin şahidi olduğunu təsdiq edib. Qənizadənin sözlərinə görə, ofisdə insanların girov tutulması və döyülməsi üçün istifadə olunan xüsusi otaqlar var. Onun atasını və əmisioğlunu da olaraq şirkətdə əsir olaraq saxlayıblar.

Şirkətin sabiq əməkdaşı Vəkil Quliyev qeyd edir ki, onu paltarlarını soyundurub videoya çəkiblər:

“Şirkətin rəhbəri Tahir Əliyev gəlib istehza ilə dedi ki, mən naxçıvanlıyam, Prezident Administrasiyası da, prokurorluq da mənim əlimdədir. Mən istədiyim adamın başına oyun açaram. Polisə getsəniz, pul verib onları da susduracağıq”.

“Koroglu” MMC-nin rəhbəri Tahir Əliyev dəfələrlə iclas keçirərək işçiləri təhdid edib: “Kimin pulu mənim pulumdan çoxdur? Kim bizdən böyükdür? Bu ölkəni idarə edən qollardanıq. Özünüzü yığışdırın, çaşmayın”.

Şirkətin sabiq əməkdaşı Arif Əliyev bildirir ki, işgəncə halları o şirkətdə artıq normaya çevrilib: “Mən uzun zaman orda işləmişəm. Bir dəfə öz gözlərimlə gördüm ki, Saleh adlı iş yoldaşımın boğazına ip keçirib sürüyürlər. Pilləkəndən sürüyə-sürüyə yuxarı qaldırdılar. Saleh huşun itirdi. Tahir Əliyev özü gəlib Salehin dilini çölə çıxarıb qucağına alıb apardı. Çünki qorxurdular ki, ölüb üstlərində qalar”.

Şirkətin digər keçmiş və həbs edilən əməkdaşı Fuad Əzimovun anası Zöhrə Əzimova isə təşkil etdiyi mətbuat konfransında qeyd edib ki, MMC rəhbəri Tahir Əliyev oğluna vaxtı keçmiş mal yollayıb və buna görə ondan 780 min manat pul tələb edib.

Şirkətin yeni qurbanları:

Şirkətin sabiq və hazırda sağlamlıq durumu natamam olan Rauf Hidayət oğlu Əliyev şirkət rəhbərliyi tərəfindən mənimsəmə faktında ittiham olunur. İttiham üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə təqsirləndirilən şəxs Rauf Hidayət oğlu Əliyevə qarşı yönələn cinayət mühakimə icraatı üzrə adı çəkilən şəxs ciddi qanunsuzluqlar qarşısında qalmaqdadır. Belə ki, hazırda 1 il 3 aydır Bakı Ağır Cinayətlər məhkəməsində ona qarşı yönələn ittiham üzrə heç bir mötəbər sübut olmamasına baxmayaraq Rauf Hidayət oğlu Əliyev ciddi hüquqi təminatsızlıqla üzləşmiş və sağlam həyat tərzindən məhrum olmuşdur. Məhkəmə baxışı ərəfəsində müdafiəçiləri tərəfindən dəfələrlə məhkəməyə təqdim edilən məhkəmə-mühasibatlıq ekspertizasının keçirilməsi ilə bağlı əsaslı və həyati əhəmiyyət kəsb edən vəsatətlərə baxmayaraq ədalət mühakiməsinin iş üzrə sədri hakim Mahmud Ağalarov adekvat mövqe sərgiləməkdən boyun qaçırıb. Ona qarşı yönələn saxta sübutlar belə onun mənimsəmə faktına dair maliyyə kəsirinin məbləğini ərsəyə gətirmir. Çünki təqdim edilən 2018 qaimənin sadəcə 60-da Rauf Əliyevin imzası var. Hazırda ara-sıra keçirdiyi əsəb və stressdən dolayı ayaqları tutulan, intihar etmək həddinə belə çatan Yeni Azərbaycan Partiyasının üzvü Rauf Əliyevin barəsində məhkəmə gerçəkliyə uyğun olmayan axtarış qərarı qəbul etmiş, barəsində həbs qətimkan tədbirini tətbiqi qənaətinə gəlmişdir. Davamlı olaraq məhkəmə proseslərində iştirak edən, sonuncu qanunsuz qərardan sonra belə heç bir yerə qaçmaması ilə bağlı məhkəməyə teleqramlar vasitəsilə müraciət edən nümayəndəsi olduğum şəxs Rauf Əliyevə ədalət tələb edirik.

Şirkətin sabiq əməkdaşı, Lənkəran rayon sakini Sahəddin Vələddin oğlu Məmmədov qeyd edir ki, o, şirkətdən 07.09.2017-ci ildə ayrılıb. Çalışdığı müddət ərzində şirkətin vaxtı keçmiş məhsullarını şirkətə müvafiq fakturalar vasitəsilə təhvil verdiyinə görə ona 23 min min manata yaxın borc yazılıb. O deyir ki, bütün təhvil vermə prosesinə dair müvafiq sənədlərdə “Koroğlu” MMC-nin möhürü və məsul şəxslərin imzası var. İşdən çıxarıldığı müddətdən etibarən dəfələrlə onu bu saxta borcun ödənilməsinə dair şirkətdə borc köləliyi altında çalışmağa dəvət ediblər. Lakin o, haqlı olaraq imtina edib. Hazırda ona qarşı cinayət işi başlanılması üçün “Koroğlu” MMC rəhbərliyi tərəfindən Baş Prokurorluğa müraciət olunub. O, şirkətin təbdir görülməyən qanunsuzluqlarından ciddi şəkildə zərər görməsindən ehtiyat edir".

İctimai müdafiəçi yazır ki, “Koroğlu” MMC-nin gerçəkləşdiriyi mürtəce özbaşınalıqlara dözmək qeyri-mümkündür: “Məhz sadalanan real faktlara görə kifayət qədər ailəni və gənci pərişan edən, gələcəkləri üzərində gələcək quran mütəşəkkil cinayətkar dəstə psixologiyası ilə fəaliyyət göstərən ”Koroğlu" MMC rəhbərliyi haqqında qanuna müvafiq tədbirlərin görülməsini sizlərdən xahiş edirəm. Ümid edirəm ki, bundan sonra dövlətimiz görülən tədbirlərin nəticəsində günhasıza cəza verilməsi və günahkarın cəzasız qalması ilə sarsılmayacaq".

P.S Qarşı tərəfi də dinləməyə hazırıq.

**E.HÜSEYNOV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 110 (6999) 21 may 2018

# Çimərlik mövsümü gəlir: 50 manatdan başlayan qiymətlər...

## Şıxovda azsaylı pulsuz çimərliklər də özəlləşdirilir

**Yay fəslinin gəlişi ilə plyaj mövsümü də start götürür. Mövsüm hələ başlamasa da, artıq çimərliklərdə qızğın hazırlıq işləri aparılır. Özəl çimərliklərdə sahil boyunca qum təmizlənir. Yenə də əhalinin kasıb təbəqəsi xalq çimərliklərinə, bir qədər imkanı olanlar isə özəl çimərliklərə üz tutacaq. Kasıb təbəqə təmizliyin və istirahət imkanlarının olmamasından, özəl çimərliyə getmək istəyənlər isə qiymətlərin nə qədər bahalaşacağından narahatdırlar. Bəs görəsən, bu il çimərlik mövsümündə Bakı sakinlərini hansı səviyyədə xidmətlər və qiymətlər gözləyir?**

"Yeni Müsavat"ın müxbiri paytaxtın müxtəlif istiqamətlərində yerləşən bir neçə özəl istirahət mərkəzlərinin çimərliklərinə baş çəkib, vəziyyətlə maraqlanıb.

Yolumuzu ilk olaraq Şıxov çimərliyindən saldıq. Çimərlik mövsümün başlamasına sayılı günlər qalsa da, artıq dəniz sahilində dincəlməyə gələnlər var. Hələ may ayı olmasına və havaların nisbətən sərin keçməsinə baxmayaraq, insanlar dəniz kənarında həm üzmək, həm də istirahət üçün gəlirlər.

Şıxovda təqribən 10-a yaxın çimərlik fəaliyyət göstərir ki, bunlardan ən məşhurları "1001 gecə", "Aqua Park Şıxov" və "Elderado"dur. Bu istirahət mərkəzləri həm restoran, həm də çimərlik kimi fəaliyyət göstərir. Bu səbəbdən də yay aylarında bu məkanlara üz tutanların sayı-hesabı olmur.

Müştəri qismində "Aqua Park Şıxov" çimərliyinə daxil olub, suyun və ətrafın təmizliyi ilə, eləcə də qiymətlərlə maraqlandıq. Öyrəndik ki, giriş üçün adambaşına 12 manat ödəməlisən. Bu qiymətə hamam, "lejanka", müxtəlif hovuzlardan istifadə daxildir. Avtomobili olanlar isə əlavə olaraq 3 manat dayanacaq haqqı ödəməlidir. Təəccüblü məqamlardan biri isə azyaşlı uşaqlar üçün də çimərliyə giriş pulu alınmasıdır. Yeni 3 yaşdan böyük uşaqlar üçün də giriş haqqı 12 manatdır. Bu qiymətin müqabilində uşaqlar üçün attraksionlar quraşdırılıb, müxtəlif əyləncələr təşkil olunur.

Digər çimərliklərdə isə qiymətlər bir qədər münasibdir. "1001 gecə" və "Elderado" çimərliyinə giriş 2 manatdır. Bu qiymətə soyunub-geyinmək yeri, duş yeri və avtomobil üçün park yeri daxildir. Dəniz kənarında uzanmaq üçün "lejanka" isə əlavə olaraq 3-5 manatdır. Dəniz kənarında quraşdırılmış çardaqda 4 nəfərlik masanın qiyməti 15 manatdır. Bu qiymətə masadan başqa heç nə daxil deyil.

Restoranda yeməklərin qiymətləri də çox da baha sayılmaz. İsti yeməklərdən kabab 4 manat, qazan yeməkləri 3 manat, salatlar 1.50-2 manat arasındadır. Bir sözlə, şəhərdəki orta səviyyəli restoranların qiymətindən elə də fərqlənmir.

"1001 gecə" çimərliyində isə qiymətlər orta səviyyəli azərbaycanlı ailəsinin büdcəsinə görə deyil. Buraya bir nəfərin girişi 10 manatdır. Bu qiymətə avtomobil üçün park yeri və bir nəfərlik çətir, duş və geyinmək üçün yer daxildir. Digər xidmətlər üçün əlavə ödəniş tələb olunur.

"Qızıl balıq" çimərliyində qiymətlər 2-3 manat arasında dəyişir. Burada dincələn vətəndaşlarla söhbətdən məlum oldu ki, təmizlik, xidmət keyfiyyəti, eləcə də qiymətin münasib olması baxımından özəl çimərlikləri seçirlər. Bu çimərliklərə 4 nəfərlik bir ailənin girişi üçün 12 manat tələb olunur. Digər xidmətlərlə birlikdə xərc 30 manatı ötmür. Restoranlarda isə 4 nəfərlik ailənin orta səviyyəli nahar etməsi təxminən 60 manata başa gəlir. Ümumilikdə bir ailənin bir günlük istirahəti üçün minimum 100 manat tələb olunur".

Təbii ki, daha lüks çimərliklər də var. "AF Hotel Aqua Park"da bir nəfərin girişi 15 manat, "Bilgəh Aqua Park"da 50 manat, "Aqua Park Shikov" iki nəfər üçün 23 manat, "Pullman Aqua Park" 40 manat, "Dalga Beach Aquapark Resort" - 50 manat, "Sea Breeze Hotel" 20 manat, "Amburan Beach" 25 manatdır.

Şıxov sahillərində təqribən 2-3 yerdə pulsuz çimərliklər mövcuddur. Lakin "xalq çimərlikləri"ndə vəziyyət bir o qədər də yaxşı deyil. Vətəndaşları buraya cəlb edən əsas amil girişin pulsuz olmasıdır. Bu səbəbdən də baxımsız vəziyyətdədir. Çimərliyin ətrafında qalaq-qalaq tullantılar tökülüb. Ərazidə olduğumuz zaman təqribən 10-a yaxın vətəndaşın dəniz kənarına gəlib, dincəldiyini, bir neçə nəfərin isə üzdüyünü gördük.

Müşahidəmiz zamanı çimərliyin ətrafında ağır texnikaların işlədiyini gördük. Çimərliyə gələn vətəndaşlarla söhbət zamanı da pulsuz çimərliklərin özəlləşiriləcəyini öyrəndik: Şıxovda az sayda pulsuz çimərlik qalıb. İldən-ilə dənizin sahili tamamilə özəlləşdirilir. Restoranlar, müxtəlif obyektlər tikilir. Xalqın çimərliyini əlindən alıb, bir az əl gəzdirib, giriş qiymətini də baha qoyurlar. Dövlət vətəndaşları üçün şərait yaratmalıdır. Biz də razıyıq ki, çimərlik özəlləşirsə xidmət haqqı alınmalıdır. Ancaq insafla daE Adambaşına 10-15 manat nədir? Bir sözlə, xalqın çimərliyini xalqa pulla satırlar".







❑ **Məğrur MƏRD,**
**Fotolar müəllifindir**






# Paxla, göbələk, dondurma... daha hansı məhsullar uşaqlar üçün təhlükəlidir?

## Həkim-pediatr valideynləri xəbərdar edir...



**Lənkəran və Masallıdan olan 4 azyaşlı bu günlərdə paxladan zəhərlənib. Belə ki, Masallı sakini, 6 yaşlı Mustafa Əliyev, Lənkəran sakini, 6 yaşlı Əli Axundov, rayonun Yuxarı Nüvədi kənd sakini, 6 yaşlı Zeynəb Əlizadə və Separadi kənd sakini, 3 yaşlı Cəfərsadiq Məmmədovun vəziyyəti pisləşib.**

Lənkəran Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilən uşaqların müayinəsi zamanı onlara "Favizm" - qanın parçalanması diaqnozu qoyulub. Azyaşlıların paxladan zəhərləndiyi məlum olub. Azyaşlılara lazımi tibbi yardım göstərilib və qan köçürülüb. Vəziyyətləri orta-ağır olaraq qalır...

Bir neçə gün əvvəl də iki uşaq eyni vəziyyətdə Lənkəran Rayon Mərkəzi Xəstəxanasının gətirilib. Onlardan biri müalicə olunduqdan sonra evə buraxılsa da, digəri ağır vəziyyətdə Bakıya göndərilib. Bu səbəbdən də həkimlər valideynləri diqqətli olmağa çağırır, 5 yaşadək olan uşaqlara paxla verilməməsini məsləhət görürlər. Onlar favizm xəstəliyi olan böyük insanlara da paxladan istifadə etməməyi tövsiyə edir.

Ümumiyyətlə isə ekspertlər bir çox məhsul, tərəvəz və qidalar var ki, uşaqların onlardan istifadəsinin yolverilməz olduğunu bildirir. Lakin bəzən valideynlər ya məlumatsızlıqdan, ya da səhlənkarlıqdan bu məsləhətlərə əməl etmir, bu da bəzi hallarda xoşagəlməz hadisələrə səbəb olur.

Məsələn, bəzən uşaqlara göbələk yeməklərinin verildiyinin şahidi oluruq. Halbuki, həkimlər göbələyin yalnız 7, hətta bəzən 12 yaşdan sonra uşağa verilməsini tövsiyə edir. Çünki göbələk həzm üçün çox çətindir və uşaqda həzm pozğunluğu yarada bilir. Düzgün seçilməyən göbələk isə, nəinki uşaqlarda, hətta böyüklərdə zəhərlənməyə, ağır fəsadlara yol açır. Məsələn, bu günlərdə İranda göbələkdən kütləvi zəhərlənmələr baş verdi. Məlumata görə göbələkdən 721 nəfər zəhərlənib, onlardan artıq 9-u dünyasını dəyişib, 50 nəfərin vəziyyəti isə ağır olaraq qalır...

Dondurma da bəzən uşaqlar üçün təhlükə mənbəyi ola bilir. Ekspertlər qeyd edir ki, uşaqlara dondurma verməzdən əvvəl mütləq şəkildə məhsulun tərkibi ilə tanış olmaq lazımdır. Əgər dondurmanın tərkibində süni bitki mənşəli yağlar, aromatizatorlar, emulqatorlar varsa, həmin dondurmanın uşağa verilməsi yolverilməzdir. Bundan əlavə, eyni vaxtda bir neçə dondurma yemək bədəni soyudur və xəstəliyə gətirə bilər.

Eyni zamanda körpələrə şokolad və kakao əsaslı məhsulların verilməsi tövsiyə edilmir. Çünki konfet və digər şirniyyatlar körpə və uşaqlarda mürəkkəb formalı allergiyanın yaranmasına səbəb ola bilir.

Əksəriyyət uşaqlar sosiska və kolbasaları çox sevir. Bəzən valideynlər uşaq üçün olan kolbasaların, eləcə də südlü kolbasa məhsullarının uşaqlar üçün təhlükəsiz olduğunu düşünür. Lakin ekspertlər bildirir ki, istənilən halda kolbasa və ya sosiska məhsullarının tərkibində çoxlu yağ, duz və qida əlavələri var ki, bu da bir çox hallarda uşaqlarda fəsadlar yaradır.

Ekspertlər tərəvəz turşularının da uşaqlara verilməsini tövsiyə etmir. Məlum olduğu kimi, təkcə uşaqlar deyil, hətta böyüklər də bəzən bu cür turşulardan zəhərlənə bilir.

Bəs daha hansı məhsullar uşaqlar üçün tövsiyə edilmir?

Mövzu ilə bağlı həkim Vaqif Qarayev "Yeni Müsavat"a danışdı: "Qan azlığı olan uşaqlarda paxlalar qanı parçalayır, anemiya yardır. Bu da uşaqlara ziyan olur. Təkcə uşaqlar deyil, favizm xəstəliyi olan böyüklərdə də paxla fəsadlara səbəb ola bilir. Bunun üçün ildə bir dəfə analiz vermək lazımdır. Bəzən çox nadir hallarda qan azlığı xəstəliyi üzə çıxır. Dondurma əgər keyfiyyətli deyilsə, əlbəttə ki, uşaqlar üçün təhlükəlidir. Göbələyin uşaqlar üçün təhlükəli olması isə inandırıcı deyil. Çünki göbələk faydalı məhsuldur. Sadəcə, düzgün göbələk seçilməlidir.

Kolbasa və sosiskanın isə uşaqlara verilməsinin hər zaman qəti əleyhinə olmuşam. Təkcə uşaqlar deyil, böyüklərə də tövsiyə etmirəm. Çünki ölkəmizdəki bu məhsullar heç də keyfiyyətli deyil".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



# Müğənnilərin Ramazan qayğıları

## Toy sifarişi olmayanlar - kimisi oruc tutur, istirahət edir, kimisi isə yeni mahnılar yazdırır...

**Artıq bir neçə gündür ki, mübarək Ramazan ayının ilk günlərini yaşayırıq. Adətən ölkəmizdə Ramazan və eləcə də Məhərrəm aylarında toy şənlikləri, məclislər keçirilmir - baxmayaraq ki, dini ekspertlər dəfələrlə qeyd edir ki, Ramazanda toy məclisi keçirmək qəbahət hesab olunmur. Sadəcə, müəyyən qaydalara əməl etmək lazımdır.**

Beləliklə, Ramazan günlərində toy və digər şənlik məclisləri çox az sayda keçirildiyindən əsas gəlir mənbəyi toylar olan müğənnilər, şadlıq evləri, restoran sahibləri demək olar ki, işsiz, pulsuz qalıb. Belə olduğu halda bəzi sənətçilər bu aylarda ya istirahətə gedir, ya da ki, yaradıcılıqla məşğul olub klip çəkdirir, studiyalarda çalışırlar.

Maraqlıdır, müğənnilər bu ilki Ramazan günlərində nə işlə məşğuldur?

Mövzu ilə bağlı "Yeni Müsavat" sənətçilər arasında kisik sorğu keçirib.

Xalq artisti Səməd Səmədov yalnız rəsmi tədbirlərdə iştirak etdiyini deyib: "Heydər Əliyev adına Sarayda Rusiya diasporunun konserti olacaq. Mən də həmin konsertə dəvət almışam. Siyahiya baxıb gördüm ki, azərbaycanlı müğənnilərdən yalnız mən bu konsertə dəvətliyəm. Konsertdə mən rus mahnısı ifa edəcəm. Lakin toy dəvətlərim yoxdur. Bildiyiniz kimi Ramazan aylarında adətən toy edilmir. Hər il olduğu kimi bu il də Ramazan ayında nəvələrim xaricdən məni görməyə gələcək. Onlarla birgə regionların gəzintisinə çıxacağıq".

Xalq artisti sağlamlığında problem olduğu üçün adətən Ramazan aylarında oruc tuta bilmədiyini deyib: "Həmçinin mən bağda qalıram, hər gün itlərimlə birgə dənizə gedir, qaçıram, imkan olduqca velosiped sürür, futbol oynayıram. Bunun üçün çox yorulduğumdan oruc tutmağa imkanım olmur. Lakin nəvələrim hər il oruc tutur".

Əməkdar artist Mətanət İskəndərli isə Türkiyədə olduğunu, bu ayda adətən oruc tutduğunu bildirdi.

Əməkdar artist, bəstəkar-müğənni Elza Seyidcahan da heç bir toy dəvəti olmadığını, oruc tutduğunu deyib: "Hazırda orucluyam. Toy dəvətləri olmasa da bildiyiniz kimi hər ayın özünə məxsus tədbirləri, çəkilişləri olur. Bu ay da yaradıcılıqla məşğul olacağam. Düşünürəm ki, qismət olmasa iftar süfrəsi də açım".

Müğənni Elariz Məmmədoğlu isə sorğumuza bu cür cavab verib: "Hazırda orucam. Allah bütün oruc tutanların dualarını, orucunu qəbul etsin. Adətən bu aylarda toy məclislərinə dəvətlər almasaq da, restoranlardan dəvətlər olur. Əslində isə Ramazan matəm ayı deyil, bayram ayıdır. Bəziləri düşünür ki, bu ayda toy etmək olmaz. Lakin toy etmək olar, sadəcə insanlar bu haqda maariflənməlidir".

Müğənni Afət Fərmanqızı da toylara dəvət almasa da, ad günü və digər bu kimi məclislərə dəvət aldığını dedi: "Moskvadan ad günü məclisinə dəvət almışam. Ramazan ayının son günlərində isə Yunanıstan səfərim olacaq. Qeyd edim ki, bu günlərdə yeni iki mahnımı hazırladım. Adətən bu cür aylarda biz sənətçilər daha çox yaradıcılıqla məşğul olur, görkəmini formaya salır, özünə daha çox vaxt ayırmağa çalışır. Çalışacam ki, imkan tapdıqca mən də bu ayda oruc tutum".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



# Ölüm aclığında olan məhkumun 25 min dollarını da "atıb"lar

## Sonya Xaliman: "Yaxın vaxtlarda məsələ ölkə rəhbərliyi səviyyəsində nəzarətə götürülməsə, ailə məhv ola bilər"

**Azərbaycan məhkəmə sisteminin dəmir yumruğu altına düşənlərdən biri də Yan Raznobarskidir. Onun həbsinə səbəb 16 iyun 2015-ci ildə Suraxanı qəsəbəsindəki "Dostluq" kafesinin kabinetlərindən birində baş verən olaydır. Yan Raznobarskinin əlində olan silahdan atəş açılıb və Murad Seyidov ayağından yaralanıb.**

Yan Raznobarski Murad Seyidovu Sabunçudakı 3 saylı Xəstəxanaya aparıb. Elə oradaca hüquq-mühafizə orqanlarına təslim olub. Sonradan müstəntiq ifadəsini alarkən Yan Raznobarski deyib ki, Murad Seyidovu öldürmək niyyəti olmayıb. Murad Seyidovun özü də ondan şikayətçi deyil. O sağlamdır, gəzir. Yan Raznobarskinin əməlini isə məhkəmə qəsdən adam öldürməyə cəhd kimi qiymətləndirib.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eynulla Vəliyev CM-in 29.120-ci (tamah məqsədi ilə qəsdən adam öldürməyə cəhd) və 228-ci (qanunsuz olaraq silah gəzdirmək) maddələri ilə ittiham olunan Yan Raznobarsini 15 il 6 ay azadlıqdan məhrum edib. Azərbaycan məhkəmə sisteminə bələd olanlar bilirlər ki, bu və ya digər şəxs barəsində hökmdə 6 aylıq "quyruq" varsa, şəxs cəzanı tam olaraq çəkməsə, azadlığa çıxması müşkül məsələdir. Yan Raznobarskinin barəsində hökm 6 aylıq "quyruq"ladır. Yəni onu təsadüfi baş verən hadisəyə görə 15 il 6 ay azadlıqdan məhrum edib bu müddətin tam olaraq həbsdə qalmasını təmin ediblər.

Bəs qanunun həddən ziyadə sərt üzünü Yan Raznobarskiyə niyə göstəriblər?

Həyat yoldaşı Sonya Xaliman "Yeni Müsavat"a deyib ki, Yanın barəsində sərt ittihamın verilməsində Səbayel rayon prokurorunun müavini Əhməd Məmmədovun əli var. Vaxtilə Yanın tikinti briqadası onun üçün villa tikib. O vaxt aralarında mübahisə yaranıb. Yan barəsində əsassız olaraq cinayət işi başladıb. Sonradan iş məhkəməyə göndərilib və Yan bəraət alıb. O dövrdən Əhməd Məmmədov Yanla düşmənçilik aparıb. Yanın əlində silah açılıb Murad Seyidova dəyməsindən sonra Əhməd Məmmədov kənardan işə qoşulub. Və Yan Raznobarskinin nəticə etibarı ilə sərt cəzalandırılmasına nail olunub. Hər halda Yan Raznobarski, onun həyat yoldaşı belə deyirlər. Sonya Xaliman deyir ki, bu haqda bütün dövlət orqanlarına yazmışıq: "Müraciətlərimiz sanki dibsiz quyuya gedir. Yan barəsindəki qanunsuz hökmlə razılaşmayacaq. Mən prezidentdən və vitse-prezidentdən dönə-dönə xahiş edirəm, müdaxilə etsinlər, Yanın həyatını xilas etsinlər. O aylardır aclıq keçirir, özünü 5 dəfə doğrayıb".

Sonya Xalimanın sözlərinə görə, ailələri qara zolağa Yan Raznobarskinin həbsi ərəfəsində düşüblər. Söhbətin məğzi isə budur ki, 2 övlad atası olan, mənzil, villa, bağ evlərinin tikintisi ilə məşğul olan Y.Raznobarskinin maddi durumu 2014-cü ilin ortalarında çətinləşib. Həmin ilin iyununda Əmircan qəsəbəsindəki mənzilini satıb. Borclarını ödəyəndən sonra qalan pulu - 25 min dolları Xaliq Cəfərova, Məryəm Cəfərovaya və Namiq Əliyevə verib. Əvəzində isə bu şəxslər ona bankdan külli miqdarda kredit vəd ediblər. Y.Raznobarskinin Xaliq Cəfərova və digərlərinə inanması təsadüfi deyil. Bu şəxslər, xüsusən X.Cəfərov özünü nazirlərdən birinin qohumu kimi təqdim edib. 15 min manatı Y.Raznobarskidən Məryəm Cəfərova alıb. Qalanlarını da digər iki şəxsə verib ki, onlar ona ipoteka krediti ayınlmasına kömək etsinlər. Amma bu adamlar pulu götürsələr də, vədlərinə xilaf çıxıblar. Sonya Xaliman deyir ki, Yan Raznobarski hüquq-mühafizə orqanlarına müraciət edib, ona qarşı dələduzluq edildiyini bildirib, araşdırılması üçün ərizə yazıb. Amma ərizə bu günə qədər araşdırılmamış qalıb. 25 min dolları verdikləri şəxslərdən ala bilmirlər. Ailə maddi və mənəvi baxımdan çox ağır durumdadır. Sonya Xaliman deyir ki, Yan Raznobarski həbsdə olaraq, onun ailəsi isə azadlıqda ağır duruma düşüblər. Yaxın vaxtlarda məsələ ölkə rəhbərliyi səviyyəsində nəzarətə götürülməsə, ailə məhv ola bilər.

Sonya Xaliman deyir ki, həbs olunanda Yanın 90 kiloqram çəkisi olub. Bu gün isə keçirdiyi davamlı aclıq aksiyalarından sonra Y.Raznobarski 50 kiloqrama qədər arıqlayıb. O, aclıq keçirməklə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərəzli hökmünün dəyişdirilməsini, işin ibtidai istintaqa qaytarılmasını tələb edir. Tələbləri yerinə yetirilməyəcəyi təqdirdə ölüm aclığını davam etdirəcəyini bəyan edib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# "Sahil" stansiyası vaxtından tez açılacaq - müjdə

**2017-ci ilin avqust ayından təmirə dayandırılan metronun "Sahil" stansiyasının bu il iyulun 1-də təhvil veriləcəyi bildirilsə də, stansiyanın sərnişinlərin ixtiyarında daha tez olacağı gözlənilir. Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq, "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib.**



Onun sözlərinə görə, artıq köhnə eskalatorların sökülməsi və yenilərinin quraşdırılması başa çatdırılıb: "Əvvəlcədən stansiyanın iyulun 1-də açılacağını bildirmişdik. Həlelik dəqiq vaxt bilinməsə də, işlər sürətləndiyindən "Sahil" stansiyasının iyulun 1-də deyil, daha tez açılacağını deyə bilərəm. Hazırda işlər davam etdirilir. Sökülmüş "LT-3" tipli 3 eskalatorun əvəzinə, Almaniyanın "Thyssen Krupp" şirkətinin istehsalı olan "Viktoriya" tipli 4 yeni avadanlıq quraşdırılıb. Bu stansiyada da dörd eskalatorun quraşdırılmasında əsas məqsəd bir çıxışlı və gur sərnişin axını olan stansiyada metro istifadəçilərinin daha operativ və rahat enib-qalxmasını təmin etməkdir. Quraşdırma işləri iki mərhələdə yerinə yetirilib. Hər mərhələdə iki eskalator quraşdırılıb. Hazırda eskalatorların sazlanıb. İşlər çərçivəsində pillə zolaqları və digər elementlər bərkidilib, müvafiq tələblərə uyğunlaşdırılıb. Bu işlərə paralel olaraq, eskalator üzərində işıqlandırma sistemi qurulub".

N.Paşayev stansiyada son işlərin görüldüyünü deyib: "Stansiya yolu, yol divarları və orta zalda divarların qranit örtüyünün vurulmasına başa çatmaq üzrədir. Eyni zamanda, platformaaltı sahə tamamilə yenidən qurularaq, müvafiq infrastruktur yenilənib və müasir tələblərə uyğun şərait yaradılıb, havalandırmanın normal təminatı məqsədilə tədbirlər görülüb".

Qeyd edək ki, "Sahil" stansiyasının sərnişin tutumu qışda pik saatlarda 32 min, yayda isə 25-27 min nəfərdir. Hazırda qatarlar stansiyada dayanmadan hərəkət edir.

# Ağıl həm yaşdadır, həm başda...

## Ağıllı olmaq və ağıllı insanları tanımaq üçün bunları bilməlisiniz

**Sosial qayğılı insanların əsasən yüksək zəka səviyyəsinə malik olduğunu bilirdiniz? "Yeni Müsavat" alimlərin yeni araşdırmasını təqdim edir. Bu araşdırma ağıllı olmağın mənfi və müsbət tərəfləri barədə bilinməyənləri üzə çıxarıb.**



Yüksək zəka səviyyələrinə sahib insanlarda bəzi yönlərdən sosial qəribəliklərə daha tez-tez rast gəlmək mümkündür. Bunun səbəbi də bu insanların dünyanı digərlərindən tamamən fərqli bir səviyyədə görməsindən qaynaqlanır. Eyni səbəbdən dolayı ağıllı insanlar görünüşdə normal, amma bəzi durumlarda inanılmaz səviyyədə narahat vəziyyətə gələ bilirlər. Bunun səbəbi onların partilər və ya sosial tədbirlərdə necə hərəkət etməli olduqlarını bilməmələri deyil. Zehinlərinin daim çalışması və bu səbəblə də ətraflarındakı hər cür şeyin onları inanılmaz səviyyədə narahat etməsi. Alimlərə görə, super ağıllı olmağın eyni anda bir nemət və bir lənət olmasının səbəbləri aşağıdakılardır.

1. Son dərəcədə uyğundurlar

Bəzi alimlər ağıllı adamların çox rahat olduqlarını və fərqli atmosferlərdə özlərini göstərə bildiklərini deyir. Son zamanlarda həyata keçirilən psixoloji araşdırmalar da bu fikri dəstəkləyir. Belə ki, ağıl insanın çevrəsini daha təsirli bir şəkildə idarə etməsi üçün davranışlarını və içində olduğu atmosferi dəyişdirə bilməsinə əsaslanır.

2. Hadisələri hədsiz dərəcədə analiz edirlər

Yaşadıqları dialoqlar və sistemli həyat hadisələrinin hamısında daha dərin mənalar axtarırlar. Bu, onların öz düşüncələri içində itməsinə və qarşıdakı ilə ünsiyyəti itirməsinə səbəb ola bilir. Ağıllı insanlar əsasən böyük danışıqlar ilə özləri arasına böyük məsafə qoyur və ünsiyyətdə aktiv olmaq yerinə, xarici müşahidəçi olmağı tərcih edirlər.

3. "Bilmirəm" deməkdən qorxmurlar

Ağıllı insanlar bəlli bir konseptə bağlı olmadıqları zaman bu durumu qəbul edirlər və "bilmirəm" deməkdən qorxmurlar. Çünki bilmirlərsə, öyrənə bilirlər. Justin Kruger və David Dunning tərəfindən həyata keçirilmiş klassik bir təcrübə insanın ağlı azaldıqca, bəzi elmi bacarıqlarını, qabiliyyətlərini gözündə böyütdüyünü göstərib.

4. Doymaq bilməyən bir maraqları var

Albert Eynşteyn belə deyib: "Özəl qabiliyyətlərim yoxdur. Sadəcə, ehtiraslı bir şəkildə hər şeylə maraqlanıram". Ağıllı insanlar özlərinə digərlərinin xəfifə aldıqları şeylər qarşısında heyran olmağa icazə verirlər. 2016-cı ildə yayımlanan bir araşdırmaya görə, uşaqlıqdakı ağılla yaşlılıqdakı təcrübələrə açıq olmaq arasında münasibət olduğu görülüb.

5. Pis niyyətlərin fərqindədilər

Ağıllı insanlar əsasən başqaları tərəfindən həyata keçirilən və deyilən hər şeyi həddən artıq analiz edirlər. Yəni, biri həddən artıq səxavətli davrandığı zaman sosial qayğılı insan onun nədən bu qədər xoş davrandığı ilə maraqlanacaq. Bu vəziyyət insanların gerçək niyyətlərindən müstəqil, bir etibarsızlığa yol açar. Bu təmkinli davranış qayğılı insanı pis niyyətlərdən qoruduğu qədər bəzən gerçəklərdən uzaqlaşmasına da səbəb olur.

6. Açıq fikirlidilər

Ağıllı insanlar özlərini yeni fikirlərə, ya da fürsətlərə qarşı bağlamırlar. Digər insanların baxışlarını dəyər və geniş fikirliliklə qəbul etməyə, düşünməyə istəklidilər. Və daim alternativ çıxış yollarına açıqdılar. Psixoloqlar açıq fikirli insanların - alternativ baxış bucaqları axtaran və sübutları ədalətli bir şəkildə hesablayanların zəka testlərində daha yüksək hesablar əldə etməyə yaxın olduqlarını deyirlər.

7. Təkbaşına olmaqdan xoşları gəlir

Yüksək dərəcədə ağıllı insanlar təkbaşına qalmağa daha meyllidirlər. İlginc bir şəkildə son dönəmdə həyata keçirilən araşdırmalar ağıllı insanların bir çox insanla müqayisədə dostları ilə sosiallaşmaqda daha az xoşlandığını ortaya qoymaqdadır.

8. Çox komikdilər

Yüksək dərəcədə ağıllı insanların yumor hissi də güclü olur. Elm adamları da bu nəticəyə qatılırlar. Həyata keçirilən araşdırmada daha komik karikatura yazıları yazan insanların yazılı zəka testlərində daha yüksək xal qazandıqları ortaya çıxıb. Bir başqa araşdırmada isə professional komediyaçıların yazılı zəka testlərində ortalamadan daha yüksək nəticələr əldə etdiyi üzə çıxıb.

9. Digər insanların təcrübələrinə qarşı daha həssasdılar

Ağıllı insanlar bir başqa insanın düşündüklərini və ya hiss etdiklərini şəxsən özü hiss etmiş kimi olur. Bəzi psixoloqlar empati hissinin digərlərinin ehtiyaclarına və duyğularına qarşı daim hazır vəziyyətdə olmağın və bu ehtiyaclara həssas şəkildə yaxınlaşacaq şəkildə davranmağın, emosional zəkanın başlıca elementlərindən olduğunu düşünür. Emosional baxımdan ağıllı insanlar tipik olaraq yeni insanlarla danışmağa və onlar haqqında yeni şeylər öyrənməyə olduqca meyllidilər.

10. Yüksək müşahidə zəkası

Yüksək zəka sahibi insanların çoxu digər fərdlərə görə ətraflarındakı dünya ilə daha artıq uyum içərisindədilər. Hər cür təhdidə qarşı həddən artıq həssas olduqları üçün rahat davranmaları bir qədər çətinləşir. Ani yüksək səslər belə panikaya düşmələrinə səbəb ola bilir. O qədər sürətlidilər ki, ətraflarındakı insanlar eşitdikləri səsi anlamağa çalışanda sürətli düşünən bu insanlar çoxsan "ya bir silah, ya da bomba olsaydı" düşüncəsinə girmiş olurlar.

11. Keçmiş təcrübədən faydalanırlar

Məntiqli insanlar olaraq, ağıllı fərdlər gələcəkdəki nəticələri təxmin etmək üçün keçmiş təcrübələrindən istifadə edirlər. Bu, yüksək səviyyədə sosial anksiyetəyə yol aça bilər. Sosial qayğılı insanlar keçmişdə özlərini nəyə görəsə günahkar hiss edən və ya uğursuz olan insanlara qarşı qoruyurlar. Mümkün nəticələri yoxlayarkən ən pis ssenariləri beyinlərində qururlar və bunu etmələri vəzifələrini tamamlamalarını çətinləşdirir.

12. Özlərini xoşbəxt hiss etmirlər

"The Atlantic"in jurnalisti Co Pinsker Ostin Universitetinin (Texas ştatı) professoru Racem Raqhunatanla onun "Əgər sən belə ağıllısansa, niyə xoşbəxt deyilsən?" kitabı haqqında danışıb. Alim əmindir ki, bir çox insanlar dünyaya köhnə baxışı dəstəklədiyi üçün və hər gün istədiyi ilə məşğul olmaq əvəzinə yaşamaq uğrunda mübarizə apardığı üçün xoşbəxt deyillər.

"Elmdə insan xoşbəxtliyinin asılı olduğu üç faktor var: mənalı münasibətlərin olması, professional uğur və müstəqil qərar vermək imkanının olması. Lakin xoşbəxtliyin təbiətinin araşdırılması daha az aydın olanı göstərir: yaxşı təhsil, material firavanlıq və uğur insan xoşbəxtliyini təmin etmir. Əksinə belə vəziyyətdə olan insan həyatdan daha az məmnun olur.

Ostin Universitetinin professoru Rac Raqhunatan bu paradoksu özünün "Əgər ağıllısansa, niyə xoşbəxt deyilsən?" adı kitabında əsaslandırmaq istəyir. Mən onunla kitab haqqında söhbət etdim" - Pinsker yazır.

"Mən məsləhət görürəm ki, siz hansı sahədə daha uğurlusunuzsa və sizə həzz verirsə, ona daha çox diqqət ayırın. Sizin digərləri ilə müqayisə etməyə ehtiyacınız qalmayanda sizi məmnun edəcək istiqamətə yönləndirəcəksiniz və əgər siz kifayət qədər uzun müddət diqqətinizi buna ayırsanız ən yaxşı olmaq şansınız artır. Siz digərlərindən daha üstün olmağa cəhd etsəniz böyük ehtimalla güc, pul və digərləri onun ardınca gələcək.

Üç əsas ehtiyaca - kamillik, tanınma və müstəqilliyə dördüncünü əlavə etmək olar. Bu, özünün dünyaya baxışının formalaşmasıdır. Bunu iki üsulla izah etmək olar. Birinci digər insanların məğlubiyyəti nəticəsində qazanılan qələbələrə baxmaqdır. O, özündən asılı olmayaraq özünü digərləri ilə müqayisəyə gətirib çıxarır. Digəri ondan ibarətdir ki, hamı bunlara nail ola bilər", - Raqhunatan deyir.

Raqhunatanın fikrincə, izah olunanlardan birincinin təzahürü müharibə şəraitində olur, bu zaman həddindən artıq aclıq və yaşamaq uğrunda mübarizə daha şiddətli olur. Onun sözlərinə görə, uzun müddət insanlar belə paradiqmada yaşayıblar və buna görə də insan hər şeyə belə yanaşır. Alim hesab edir ki, bu artıq aradan qalxıb və indi az sayda insan sözün əsl mənasında yaşamaq uğrunda mübarizə aparmalı olur.

"Bir tərəfdən bizim neqativ faktorlara meylliliyimiz var. Eyni zamanda biz xoşbəxtlik və inkişafa çalışırıq, mümkün qədər daha yaxşı olmağa çalışırıq. Bəzən bizə xoşbəxtlik üçün istədiyimiz sadə şeyləri etmək bəs edir. Uşaqların davranışına baxsaq onlarda bu çox yaxşı alınır. Onlar özlərinə zövq verən işlərlə məşğul olurlar".

Alim deyir ki, işçilərin motivasiyası üçün metodik olaraq "Motivasiya 2.0" gəldi. Bu yanaşmanın əsasında insanların əslində nəyi xoşlaması dayanır. Bu praktikanın reallaşması üçün Google korporativ mədəniyyətini nümunə kimi göstərir.

"Güman edirəm ki, bizi biznesin işləməsi haqqında olan çoxlu sayda köhnəlmiş fikirlər istiqamətləndirir. Saymin Saynek öz kitablarının birində qeyd edib ki, şirkətlər onlara hərbçilərdən qalan ciddi iyerarxiya və resurs çatışmazlığına istiqamətlənən qaydalarla işləyir. Amma ən görkəmli hərbçilərə nəzər yetirsək, onların başqa formada hərəkət etdiklərini görərik. Beləliklə biznes dünya quruluşu haqqında səhv ideya dəstini götürdü".

Raqhunatanın fikrincə, insanlar onların böyük uğur qazanacağı təqdirdə xoşbəxt olacaqları qənaətindədirlər. Lakin təcrübə bunun belə olmadığını göstərir.

"Xoşbəxtliyi konkret nəticə ilə bağlamağın vacib olmamasının səbəbi ondadır ki, nəticələr yaxşı və ya pis olur və xoşbəxtliyə birbaşa heç bir təsir göstərmir. Əgər siz ilk sevginizlə vidalaşmanızı, qolun sınmasını və ya bir neçə aylıq xəstəxanada yatmanızı xatırlasanız o zaman belə fikirləşə bilərdiniz: "Mən heç vaxt bərpa olunmayacam". Lakin faktiki olaraq biz belə hadisələrlə tez-tez rastlaşırıq və bundan da ağır hadisələrin öhdəsindən gəlirik" - Raqhunatan deyir. Bundan başqa alim deyir ki, belə hadisələr yeniliklərə öyrəşməyi və şəxsiyyət kimi formalaşmağa imkan verir.

13. Ağıllı insanın dostu olmur

"British Journal" üçün tədqiqat həyata keçirən psixoloqlar (Normal Li və Satosi Kanadzava) aşkar ediblər ki, ağıllı insanlar hər zaman ünsiyyətdən məyus olurlar. Xəbərə görə, 18-28 yaşlı insanlar üzərində aparılan uzunmüddətli araşdırmalar bu nəticəyə gətirib ki, onların sosial dairəsi kifayət qədər genişdir.

"Onlar başqaları ilə ünsiyyətdə olarkən özlərini çox xoşbəxt hiss edir, vaxtlarının necə gəlib keçdiyini bilmirlər. Çünki bu yaşda olanlar ətrafda baş verənlərə çox vaxt ciddi yanaşmır, başqalarının hərəkətlərinə dərindən fikir vermirlər. Onlar üçün əsas olan ünsiyyətdir, qalanların isə elə də əhəmiyyəti yoxdur", - araşdırmanın nəticəsində belə qənaətə gəlinib.

Amma tədqiqatlar göstərib ki, intellektual insanlar dostluq münasibətlərindən o qədər də həzz almırlar: "Çünki ağıllı insanların həmişə həyatdan müəyyən narazılıqları olur. Onların yanaşması belədir ki, ətrafdakı bütün neqativ halları düşüncəsi, ağlı olmayan insanlar yaradırlar. Əgər ağıllılar belə çoxdursa, onda niyə ətrafda bu qədər neqativlər var?!"

Mövcud nəzəriyyəyə görə, bunun əsas səbəbi odur ki, ağıllı insanlar uzunmüddətli layihələr barədə daha çox düşünür, diqqətlərini onlara yönəldir və ətrafla ünsiyyət onların diqqətini əsas hədəflərindən yayındırır: "Onlar ağıllı bir şey əldə edə bilməyəcəkləri ünsiyyətə vaxt itkisi kimi baxır və onu axmaqlıq hesab edirlər".

Britaniyalı psixoloqların gəldiyi nəticəyə görə, ağıllı adamların ünsiyyət üçün kifayət qədər vaxtları yoxdur: "Daha yaxşı həyata daha sürətlə adaptasiya etmək üçün lazımsız ünsiyyətə vaxt sərf etmək əbəsdir. Bəlkə də az dostla və məhdud dairədə vaxt keçirmək daha yaxşıdır. Ağıllı adamların ən yaxşı dostları onların ideya və düşüncələridir. Onlar, adətən fikirlərini ideyalarının gerçəkləşməsinə konsentrə edirlər və onlara elə gəlir ki, əgər başqaları ilə ünsiyyətə vaxt sərf etsələr, hər şey alt-üst olacaq, ideyaların sistemliliyi pozulacaq".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 110 (6999) 21 may 2018



## Qadınların "40 yaş krizisində" bunlar baş verir

Mütəxəssislərin fikrincə, 40 yaş qadının həyatın durğunlaşdığı, iş və sosial həyatda bir zəifləmə hiss edilən dövrdür. Lakin keçici bir mərhələ olduğu üçün "40 yaş krizi' adlandırılır. Kişilərə nisbətən qadınlar daha həssas xarakterə sahib olduqları üçün bu dövrdə də olduqca həssas olurlar.

Araşdırmaların bir çoxunda göstərilir ki, bu mərhələdə hormonlarda baş verən dəyişikliklər də öz təsirini göstərir. Lakin bu barədə konkret bir fikir söyləmək doğru deyil. Qadın 40 yaşında hələ öz hədəflərinə çatmayıbsa, bunun həyat yoldaşı və ya sevgilisi tərəfindən də bəyənilmədiyini düşünür və bu hiss onu daha çox narahat edir. Həmçinin, iş yerində karyera baxımından istədiyi yerdə deyilsə, hələ ailə qurmayıbsa, ana deyilsə, bu sindromu yaşama ehtimalı daha çoxdur.

Bu yaşlarda qadının aldadılması onun üçün gənclik dövrünə nisbətən çox ağırdır. Əgər gənc ikən, "Hələ irəlidə daha gözəl bir həyat var, daha dürüst insana rast gələrəm" düşüncəsi ilə yaşayırsa, indi hər şeyin sonu olduğunu düşünür.

# Çox düşünən insanın yaddaşı zəifləyir

**İngiltərədə aparılan bir araşdırmaya görə, çox düşünən insanların yaddaşı zəif olur. Bu adamlar digərləri ilə müqayisədə daha tez depressiyaya düşürlər. Aparılan təcrübələr zamanı elm adamları insanların hansısa bir mövzuda qərar verərkən nə qədər düşündüyü ilə bağlı beyinin hansı hissəsinin daha çox fəal olduğunu araşdırıblar. Verdikləri qərarlardan əmin olan və üzərində təkrar-təkrar düşünməyən adamların beyinlərinin düşüncə ilə bağlı hissəsi sayılan ön hissədə daha çox hüceyrələr var. Qərarları və həyat haqda dəqiq düşünə bilməyən insanların beyinlərinin ön hissələrində hüceyrələrin sayı isə digərləri ilə müqayisədə xeyli azdır.**



# Uşaqlar çox "fast food" yesə...

**Qərbi Avstraliya Universiteti ilə Telethon Uşaq Sağlamlıq Araşdırma İnstitutunun birlikdə həyata keçirdiyi araşdırmanın nəticələrinə görə, "fast-food" qidalar uşaqlarda piylənmə ilə yanaşı, bir sıra zehni problemlərə də yol aça bilir. Belə ki, "fast-food" qidalardan istifadə uşaqlarda öyrənmə pozğunluğu, motivasiya əskikliyi və yaddaş zəifliyinə yol aça bilər. Bu baxımdan valideynlərə uşaqlarını bu tip qidalardan maksimum uzaq tutmaq tövsiyə edilir.**

Araşdırmalardan o da üzə çıxır ki, heyvan və ya transgen mənşəli yağlarda qızardılmış məhsulların, eləcə də süni qidaların tərkibində vitaminlər, enerjinin, karbohidratların dəyəri qeyri-stabil olur. Belə qidaları mütəmadi qəbul edən uşaqlarda həzm sistemi xəstəlikləri, sümük boşluğu daha çox özünü göstərir. "Fast-food" məhsullarından tez-tez istifadə edən ailələrin uşaqlarında yaddaş zəifliyi və qavrama qabiliyyəti aşağı səviyyədə olur. Onlar yetkinlik dövründə "kökəlmə bəlası"na düçar olurlar.

Uşaqlar çox yedikləri üçün deyil, zərərli qidalar yedikləri üçün xəstələnirlər. O da xüsusi olaraq qeyd edilməlidir ki, hamburger növü yeməklərin tərkibində xeyli miqdarda doymuş yağ və duz olduğundan, bu yeməklərin karbohidrat göstəricisi də aşağı səviyyədədir.

"Fast-food" qidalarında enerjinin kalorisi çox yüksəkdir. Yağ və şəkər "fast-food" yeməklərinin enerji mənbəyidir. Bir pay "fast-food"un enerji dəyəri 400-1600 kalori arasında dəyişir. Ortalama olaraq "fast-food" məhsullarındakı enerjinin 40-60 %-i yağlardan alınır. Bu isə kökəlməni sürətləndirir.





## İnsan əzələlərini cavanlaşdırmaq mümkündür, özünü isə yox

**"Natura" jurnalının yaydığı məlumata görə, siçanlar üzərində araşdırma aparan alimlər bu heyvanların orqanlarını gəncləşdirməyi bacarıb. Zəif və xəstə heyvanların orqanlarını gəncləşdirən alimlər araşdırmaların insanlar üzərində davam etdiriləcəyini açıqlayıblar.**

İnsan orqanlarının gəncləşərək yenidən sağlam olacağını söyləyən professor Ronald DePinho deyib ki, məqsədləri fərqli olub: "Məqsədimiz az da olsa gəncləşməyə nail olmaq idi. Bu, heç gözləmədiyimiz bir nəticə oldu. Bədəndə hər hüceyrə 23 cüt xromosomdan ibarətdir. Hər xromosomda telomer adlı təhlükəsizlik boşluğu var və hüceyrə hər dəfə bölünəndə bu boşluq qısalır, daha sonra hüceyrələr ölür, ya da yaşlanma dövrünə qədəm qoyur. Siçanlar üzərində aparılan araşdırma zamanı bu telomer boşluğunun qısalmasının dayandırılmasına və hüceyrələrin gəncləşməsinə nail olunub".




**QOÇ** - Təzə xəbərlər yolunuzu gözləyir. Bu, çox güman ki, öz doğmalarınız tərəfindən və ya onlar haqqında olacaq. Hər halda, şahidi olduğunuz yeniliklər ovqatınıza mənfi təsir göstərməyəcək.

**BUĞA** - Çoxdan bəri düşüncələrinizdə kök salmayan qərarlar verməyin. Çünki bu gün yeni fikir və ideyalar səmərəlilikdən çox uzaqdır. Axşama doğru qonaq timsalında çağrılacağınız gözlənilir.

**ƏKİZLƏR** - Fəaliyyətlə bağlı uğurlarınız mümkün olsa da, iş yerində həmkarlarınızla, xüsusən də rəhbərliklə ehtiyatlı davranın. Günün ikinci yarısında büdcənizi artırmağa yaxın olacaqsınız.

**XƏRÇƏNG** - Qarşılıqlı anlaşma üçün ideal gündür. Bütün görüş və sövdələşmələr xeyrinizə cərəyan edəcək. Maliyyə məsələlərini isə hələlik başqa vaxta saxlayın. Enerjinizi sevgidən alın.

**ŞİR** - Mənfi yüklü Ay bürcünüzdə qərar tutduğu üçün bu təqvimi müəyyən gərginliklə başa vura bilərsiniz. Buna baxmayaraq, fəaliyyətinizdə müsbət sıçrayışlar da mümkündür.

**QIZ** - Maraqlı görüşlərdə iştirak etmək üçün gözəl fürsətdir. Hətta bunun naminə fəaliyyətə də bir qədər ara vermək olar. Bu gün yeni işgüzar təkliflər alacağınız da istisna olunmur.

**TƏRƏZİ** - Olduqca səmərəli gündür. Gələcəyiniz üçün böyük əhəmiyyət kəsb edəcək görüşlərdə iştirakınız mümkündür. Təşəbbüskarlığı əldən verməməklə təkliflərə razılıq verin.

**ƏQRƏB** - Günün ümumi ovqatı aşağı olsa da, qənaətbəxş məqamlar yaşayacaqsınız. Stressə düşməkdənsə gələcək planlarınızı konkretləşdirin. Axşama doğru ikitərəfli görüşlər səmərə verə bilər.

**OXATAN** - Olduqca təzadlı gündür. Uğurlu və xoşagəlməz olaylar tez-tez bir-birini əvəz edəcək. Bundan öz xeyrinizə istifadə etmək üçün prosesləri diqqətlə izləyib, obyektiv qərar çıxarın.

**OĞLAQ** - Təxminən saat 14-ə qədər cərəyan edən daxili sıxıntılarınız sonrakı müddətdə qaydasına düşəcək. Bu səbəbdən də vacib işlərinizi sonraya saxlayın. Büdcənizdə artım da gözlənilir.

**SUTÖKƏN** - Günün əsas tövsiyəsi kənardan dəstək ummaqdır. Təkbaşına fəaliyyətin uğurlu olmadığını nəzərə alıb ürəyinizə yaxın olanların köməyindən istifadə edin. Məntiqsiz riskdən uzaq olun.

**BALIQLAR** - Ulduzlar böyük dəyişikliklər astanasında olduğunuzu bəyan edir. Belə məqamlarda qətiyyən boş dayanmaq olmaz. Qarşınıza çıxan hər bir şansdan bəhrələnin. Uğurlarınız uzaqda deyil.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu uşağın adı xəstəliyə verildi

**4 yaşındakı Milo Braun adlı uşağın xəstəliyi o qədər nadirdir ki, həkimlər xəstəliyə onun adını veriblər. "Daily Mail"in xəbərinə görə, dəstək almadan otura bilməyən uşaq daim ailəsinə ehtiyac duyur. Əsla otura, yeriyə və iməkləyə bilməyən Milonun mədəsi də həssas olduğu üçün bağırsağına bağlı olan bir alətlə qidalanır. Həkimlər 4 yaşındakı uşağın xəstəliyinin bənzərini görmədikləri üçün "Milonun xəstəliyi" deyə adlandırırlar.**

Ailəsi Milodakı bu qəribəliyi o, hələ 1 günlük olanda fərq edib. Qolları və ayaqları spazmatik bir şəkildə olub. Ailə vəziyyətin şokdan qaynaqlandığını və zamanla düzələcəyini düşündü. Amma dəyişmədiyi üçün xəstəxanaya müraciət edib. Elə həmin gündən ailə həkimlərin qapısında qalıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 5.100